www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 sentyabr 2017-ci il Çərşənbə № 183 (6797) Qiyməti 60 qəpik

**Xəbər**

## Varlıların benzini bahalaşdı, növbədə dizel ola bilər

yazısı səh.7-də

**Gündəm**

### Azərbaycana 3 milyardlıq ittihama Bakıdan reaksiya: “Sorosun və ermənilərin işidir...”



Azərbaycan hökuməti “Guardian” qəzetində dərc olunan qərəzli yazıya qarşı hərəkətə keçdi; Fransa telekanalına qarşı məhkəmə iddiası qaldırıldı

yazısı səh.4-də

### Marşrut xəttinin sahibinin evinə basqın

yazısı səh.3-də

### Siyasətdə durğunluq nə zaman bitəcək?

yazısı səh.7-də

### Sergey Lavrovun istefası gündəmə gəldi

yazısı səh.5-də

### Mehman Əliyevin girov müqabilində azadlığı üçün müraciət edildi

yazısı səh.7-də

### Ermənistanın NATO təlimlərindən imtinasının gerçək səbəbi: “Qulaqburması...”

yazısı səh.9-da

### Eldar Mahmudovun “qalxanı” - onu azadlıqda saxlayan ilginc səbəb

yazısı səh.13-də

### “Neftin qiyməti ilə bağlı təşvişə ehtiyac yoxdur”-ekspert

yazısı səh.9-da

### Məktəbli ləvazimatları valideynlərin cibini “yandırır”

yazısı səh.14-də

### Azərbaycan Myanma qırğınını pislədi

yazısı səh.12-də

### Yay bitdi: qarşıda bizi nələr gözləyir - iki rəy

yazısı səh.14-də

## Paytaxtımızın başçısını zurna-balabanla yola salırlar?

# ABUTALIBOVA QARŞI “ULDUZ MÜHARİBƏSİ”NİN ŞOK SİRRİ

Şou-biznesin tanınmış simaları Hacıbala Abutalıbovun fəaliyyətini kəskin tənqid edən klip hazırlayıblar; Bakı merinin mövsümlə əlaqədar aktual olmayan yağış suları və ya yollardakı qazıntılara görə yada düşməsi səbəbsiz deyil




yazısı səh.5-də

## Kremldən ermənilərə ağrılı xəbərdarlıq

Rusiyanın rəsmi nəşri Ermənistanı Azərbaycanla hədələdi: “Unutmayın ki...”; Serj Sərkisyanın Soçiyə çağırılmasının əsas səbəbi üzə çıxır...

yazısı səh.8-də



*Bəhram Bağırzadə:*

### “Oğurluğu və rüşvəti bacarmıram...”

yazısı səh.10-da



### “Qaçqınkom” sədrinin nəvəsinin müdafiəçiləri susur

yazısı səh.3-də



*Siyavuş Novruzov:*

### “Biz hər hansı ölkənin diktəsi ilə oturub-duran deyilik”

yazısı səh.6-da




## Qəbələ meşələrində baş vermiş yanğın tam nəzarət altına alınıb

**Qəbələ rayonunun Solquca, Abrıx və Dandıx kəndləri yaxınlığındakı meşəlik ərazilərdə yanğınların söndürülməsi istiqamətində həyata keçirilən təxirəsalınmaz və operativ tədbirlər nəticəsində yanğınlar tam nəzarət altına alınıb.**

Qəbələ rayonunda meşə ərazisində baş vermiş yanğınların söndürülməsi üzrə Əməliyyat Qərargahının məlumatında bildirilir ki, hazırda bəzi tüstülənmə mənbələrinin söndürülməsi üçün zəruri tədbirlər görülür.

Yanğının söndürülməsi əməliyyatına Fövqəladə Hallar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin canlı qüvvəsi və texnikası cəlb olunub.

## Gürcüstan Saakaşvilinin ekstradisiyasını tələb edib

**Gürcüstan Ukraynaya bu ölkənin keçmiş prezidenti və Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvilinin ekstradisiyası barədə müraciət edib. Bunu brifinq zamanı Ukraynanın ədliyyə nazirinin müavini Sergey Petuxov deyib.**

Nazir müavini qeyd edib ki, Ukrayna M.Saakaşvilinin axtarışa verilməsi, saxlanması və ekstradisiyası barədə müraciət alıb.

## Merkeldən Türkiyəyə qarşı çağırış

**Almaniya Avropa İttifaqının növbəti sammitində Türkiyənin təşkilata üzvlüyü ilə bağlı müzakirələrin dayandırılması məsələsinin müzakirəsini təklif edəcək. APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bunu Almaniya federal kansleri Angela Merkel Bundestaqda çıxışında deyib.**

"Mən Avropa İttifaqının növbəti zirvə toplantısında Türkiyə ilə münasibətlərin gələcəyini, o cümlədən üzvlük müzakirələrinin dayandırılması və ya təxirə salınması məsələsini nəzərdən keçirməyi təklif edəcəyəm", - deyə o, bildirib.

Xatırladaq ki, Almaniya Türkiyəyə Aİ fondlarından və təşkilata bağlı maliyyə qurumları tərəfindən maddi yardımlar və kreditlər ayrılmasının məhdudlaşdırılması məsələsini də qaldırıb. Səbəb Türkiyədə bir neçə Almaniya vətəndaşının həbs olunmasıdır. Ümumilikdə Aİ Ankaranı insan haqları pozuntularında ittiham edir.

## Putin Kadırovun hədəsini şərh edib

**Hər bir insanın şəxsi fikri var və Çeçenistan başçısı Ramzan Kadırovun Myanmadakı hadisələrlə bağlı fikirlərində heç bir müxaliflik yoxdur. Virtualaz.org RT-yə istinadən xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin bildirib.**

"O ki qaldı Rusiya vətəndaşlarının dövlətin xarici siyasəti ilə bağlı fikirlərinə, hər bir insanın şəxsi fikri və bunu bildirməyə hüququ var", - Putin bəyan edib.

Prezident əlavə edib ki, bunun insanın vəzifəsi ilə heç bir asılılığı yoxdur.

Çində BRİKS sammitinin yekunlarına həsr edilmiş mətbuat konfransında sualları cavablandıran Putin bildirib: "İnandırıram ki, Çeçenistan rəhbəri tərəfindən heç bir fronda (müxaliflik - red.) yoxdur, xahiş edirəm, hamı sakitləşsin, hər şey qaydasındadır".

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi professor Qabil Hüseynliyə qardaşı Hüseyn Hüseynlinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Çavuşoğlu Bakıdadır, Ərdoğan sonra gələcək

**Türkiyə xarici işlər naziri Mövlut Çavuşoğlunun Azərbaycana səfəri başlayıb. APA-nın məlumatına görə, o, sentyabrın 6-da Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Gürcüstan xarici işlər naziri Mixeil Canalidze ilə 6-cı üçtərəfli görüşdə iştirak edəcək.**




Türkiyəli nazirin Azərbaycan prezidenti İlham Əliyevlə də görüşü gözlənilir.

Mixeil Canalidze sentyabrın 5-də axşam saatlarında Bakıya gəlib.

Qeyd edək ki, 6-cı üçtərəfli görüşdə əvvəlki görüşlərdə qəbul olunmuş qərarlar nəzərdən keçiriləcək, 3 ölkənin iştirakı ilə regional əməkdaşlıq məsələləri müzakirə olunacaq və sonda "2017-2019-cu illərdə üçtərəfli əməkdaşlıq planı" imzalanacaq.

Səfər zamanı nazirlər arasında ikitərəfli görüşlər də baş tutacaq.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə Bakıya Qazaxıstana səfər etdikdən sonra gələcək. Virtualaz.org bildirir ki. bu barədə Türkiyənin "Daily Sabah" qəzeti yazıb.

Xatırladaq ki, sentyabrın 10-11-i tarixlərində Ərdoğan iki günlük səfərlə Azərbaycana gəlməli idi. Həmin günlər ərzində Azərbaycan-Türkiyə yüksək səviyyəli strateji əməkdaşlıq Şurasının 6-cı iclasının keçirilməsi nəzərdə tutulmuşdu. Lakin sonradan Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirdi ki, Ərdoğanın səfəri dövlət başçısının iş qrafikində baş vermiş dəyişikliklərlə bağlı təxirə salınıb.

"Daily Sabah" yazır ki, sentyabrın 8-dən 10-na qədər Ərdoğan Qazaxıstanda səfərdə olacaq və burada ölkə prezidenti Nursultan Nazarbayevlə görüşəcək.

**Bir həftə sonra isə Ərdoğan Nyu-Yorkda BMT-nin Baş Assambleyasında iştirak edəcək. Bu tədbir 19-25 sentyabr tarixlərində keçiriləcək.**




## 900-ə yaxın vətəndaşın diplomu Azərbaycanda tanınmayıb

**Son bir ildə xaricdə təhsil alan 900-ə yaxın vətəndaşın diplomu Azərbaycanda tanınmayıb.**

Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin rəisi Samir Vəliyev APA-ya açıqlamasında bildirib ki, idarənin bir illik fəaliyyəti dövründə 3000-dən çox vətəndaş sənədlərinin nostrifikasiyası (Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi) ilə bağlı müraciət edib. Onlardan təxminən 33%-dən imtina edilib və həmin şəxslərin diplomları tanınmayıb. İdarə rəisi qeyd edib ki, bu da rəqəmlə 900-ə yaxın vətəndaşın diplomunun tanınmaması deməkdir: "İmtinanın səbəbləri əsasən vətəndaşların tədris dilini bilməməsi, öz ixtisasından heç bir məlumatın olmaması, eləcə də daxil olan sərhəd məlumatına əsasən verilmiş imtinalar, ixtisasların təhsil pillələri üzrə uyğunsuzluğu və digərləri daxildir. Təhsil müəssisələrini uğurla bitirən 60%-dən çox şəxsin diplomları isə ölkədə tanınıb".

**İdarə rəisi vurğulayıb ki, Azərbaycanın təhsil müəssisələrində keyfiyyət artdıqca xarici ölkələrə axın daha çox olacaq:** "Lakin bizim vətəndaşlar anlamalıdır ki, xarici ölkəyə əsasən daha fərqli və yaxşı təhsil arxasınca getməlidirlər. Yalnız diplom əldə etmək məqsədilə xarici ölkəyə gedilən təhsilin nəticəsində həmin şəxsin diplomunun tanınmasında əngəllər yaranır. Nəticə etibarilə ictimaiyyətə bu rəqəmlər çatdırılır, orta məktəb məzunlarına daha diqqətli olmaları tövsiyə edilir. Ölkə üçün daha prioritet və vacib sahələrin seçilməsi onların gələcəkdə işlə təminatı, lazımi ixtisas sahibləri olması deməkdir".




## Azərbaycan OPEC qarşısında götürdüyü öhdəliyi yerinə yetirib

**Energetika Nazirliyi Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv olan və kartelə daxil olmayan ölkələrin neft hasilatının azaldılması ilə bağlı Vyana razılaşmasına uyğun olaraq Azərbaycanın cari ilin avqust ayı ərzində gündəlik neft hasilatı ilə bağlı məlumatlarını Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.**

Nazirliyin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, həmin məlumatlara əsasən, cari ilin avqust ayı ərzində respublika üzrə gündəlik neft hasilatı 734,8 min barrel olub. Bunun 704 min barrelini xam neft, 30,8 min barrelini kondensat təşkil edib. Gündəlik 617,6 min barrel xam neft, 30,8 min barrel kondensat, 6,6 min barrel isə neft məhsulları ixrac edilib.

"Neft hasilatının azaldılması üzrə sazişə müvafiq olaraq Azərbaycan hasilatı sutkada 35 min barrel azaltmaqla bağlı götürdüyü öhdəliyi növbəti dəfə də tam yerinə yetirib", - deyə açıqlamada vurğulanıb.

Qeyd edək ki, respublika üzrə gündəlik neft hasilatı yanvar ayı ərzində 793,9 min barrel, fevralda 776,4 min barrel, martda 733,3 min barrel, apreldə 781,1 min barrel, mayda 785,3 min barrel, iyunda 793,7 min barrel, iyulda isə 796,7 min barrel olub. Xatırladaq ki, ötən il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 mln. barrel azaldılaraq 32,5 milyon barrelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barrel azaldılması barədə sazişə imza atıb.

25 may 2017-ci il tarixində OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünədək uzadılması barədə razılıq əldə olunub.

## Sabiq MTN polkovniki dələduzluqda ittiham olunur

**Sentyabrın 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Nicat Əliyev, Anar İsmayılov, Ceyhun İbayev, Vüqar Əsədov və Vüqar Güləliyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Fikrət Qəribov sədrlik edib. Prosesdə şahidlər ifadə verib.

Şahid qismində Əlihüseyn Mahirov dindirilib. O, oğlunun həbsdən buraxılması üçün gəlini Səriyyə Tahirova tərəfindən təqsirləndirilən şəxslərə 147 min manat verildiyini deyib:"Pulları qohumun Ceyhun İbayev alıb. Vüqar Əsədov məni Lənkərana, Lerikə apardı. Guya bu işi onun əmisi həll edəcəkdi. Günah Ceyhun İbayevdədir. Çünkü pulu almışdı, gərək mənə də bu barədə deyərdi. Məndən qorxduğu üçün deməyib".

Təqsirləndirilən C.İbayev məhkəməyə bildirib ki, pulun geri qaytarılması ilə bağlı V.Güləliyev 30 min manatı öz boynuna götürüb, bir nəfərlə görüşüb pul gətirəcəyini deyib. Amma o gedən gedib.

Təqsirləndirilən V.Güləliyev isə 147 min manat pul zərərçəkmiş Səriyyə Tahirovadan almadığını bildirib: "Bu pulun 77 min manatından xəbərim olub. 7 mini işi həll etmək üçün vermişəm. 47 mini isə Vüqar Əsədova vermişəm. Anama söz vermişəm düzünü danışacam. Gərək haqqla danışaq".

Şahid qismində zərərçəkmiş Səriyyə Tahirovanın bacısı Zemfira Əhmədova ifadə verib. İfadəsində bacısının həyat yoldaşının həbsdən azad etdirmək Ceyhun İbayevə pul verdiklərini göstərib.

Hakim prosesə gəlməyən digər şahidlər barəsində məcburi gətirilmə qərarı çıxarıb.

Məhkəmə prosesi sentyabrın 14-də davam etdiriləcək.

Qeyd edək ki, təqsirləndirilən şəxslər zərərçəkmiş Səriyyə Tahirovanın həyat yoldaşını həbsdən azad edəcəklərini deyərək, qadının 147 min manat pulunu dələduzluq yolu ilə ələ keçiriblər.

Onlara qarşı Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə cinayət işi açılıb.

Xatırladaq ki, V.Güləliyev ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq polkovniki olub.

## Tiflis yeni erməni səfirin təyinatına razılıq vermir

**Gürcüstan hakimiyyəti Qafqaz İnstitutunun direktor müavini Serqey Minasyanın Gürcüstanda Ermənistan səfir kimi təyinatına razılıq verməkdən inadla imtina edir.**

Virtualaz.org bildirir ki, bu barədə İrəvanda çıxan "Jamanak" qəzeti şəxsi mənbələrinə istinadən xəbər yayıb.

İnformasiyaya əsasən, rəsmi Tiflis bildirir ki, Minasyan onun üçün arzu edilməyən şəxsdir.

"Gürcüstan hakimiyyətində ciddi şübhələr var ki, o, Ermənistanı yox, Rusiyanı təmsil edəcək", - deyə nəşr qeyd edib.

# "Qaçqınkom" sədrinin nəvəsinin müdafiəçiləri susur

## 1 aydır həbsdə olan Nail Allahverdiyevə qarşı açılmış cinayət işinin istintaqından xəbər yoxdur...

**Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun nəvəsi Nail Allahverdiyevin dəhşətli qəza törətməsindən bir ay vaxt keçir. Qəza sonrası başda Əli Həsənov özü olmaqla, ailə üzvləri hadisənin Nail tərəfindən törədildiyini gizlətməyə çalışdı.**



Hətta bir çox ictimai şəxslər, o cümlədən deputat Astan Şahverdiyev də qəzanın Nail tərəfindən törədilmədiyi iddiasını irəli sürüb, əks fikirdə olanları kəskin şəkildə qınadılar. Lakin Daxili İşlər Nazirliyi tərəfindən yayılan rəsmi açıqlama Nail Allahverdiyevi müdafiə edənləri susdurdu. Məlum oldu ki, qəzanı törədən elə Nail Allahverdiyevin özüdür və faktla əlaqədar ona Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti qaydalarını pozma - iki və daha artıq şəxsin ölümünə səbəb olduqda) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi açıldı. 1994-cü il təvəllüdlü Nail Allahverdiyev barəsində məhkəmənin hökmü ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçildi.

Qəza baş verən zaman sosial şəbəkələrdə insanlar Əli Həsənovun istefa verməli olduğunu bildirir, Nail Allahverdiyevə ağır cəza istəyirdilər. Lakin hadisədən bir ay vaxt keçməsinə baxmayaraq, ara sakitləşib. Artıq nə Əli Həsənov nəvəsindən danışır, nə də Nail Allahverdiyevin vəkili onun vəziyyəti ilə bağlı mətbuata hər hansı bir açıqlama verir. Vəkil bildirir ki, Nail Allahverdiyevin işi ilə bağlı mətbuata hər hansı bir açıqlama verməmək istəmir.

Lakin vəkil sussa da yayılan məlumatlara görə, Nail Allahverdiyev 1 saylı Bakı İstintaq Təcridxanasında çox yaxşı şəraitdə saxlanılır. Onun digər dustaqlardan fərqli vəziyyətdə saxlanıldığı, çöldə olduğu kimi içəridə də lüks həyat yaşadığı bildirilir. Halbuki, Əli Həsənovun nəvəsi Heydər Əliyev prospektində "Mercedes Galendawagen" markalı maşını ilə törətdiyi qəzada 2 nəfər ölüb, 2 nəfər isə ağır yaralanıb. Qanunvericiliyə görə, Nail Allahverdiyevə maksimum 10 il iş verilə bilər.

**Vəkil Əsabəli Mustafayev** "Yeni Müsavat"a bildirib ki, məhkəmənin qərarından asılı olaraq Nail Allahverdiyev 4 aydan sonra azadlığa da buraxıla bilər:

"Hadisədə motiv əsas rol oynayır. Əgər sürücü ehtiyatsızlıq nəticəsində yol hərəkəti qaydalarını pozaraq adam öldürürsə bu, başqadır. Bir də var ki, sürücü qəsdən adam öldürür. Qəsdən vurub öldürən zaman bunun cəzası 20 il də ola bilər. Qəsd olmasa ona uyğun da cəza verilir. Əli Həsənovun nəvəsinə açılan cinayət işi bəllidir və onun həbs müddəti maddəyə görə, maksimum 10 ildən artıq ola bilməz. Ağırlaşdırıcı hallar, yəni içkili, narkotikin təsiri altında olması halları yoxdursa bu da nəzərə alınır. Hər halda Nail Allahverdiyevin törətdiyi cəza ağırdır. Onun vaxtından əvvəl azadlığa çıxması isə məhkəmənin səlahiyyətindədir. İstintaq həbsin uzadılması ilə bağlı təqdimat verəcək. Lakin bunu uzadıb, uzatmamaq məhkəmənin səlahiyyətindədir".

**Vəkil Əli Həsənovun nəvəsinin lüks şəraitdə saxlanılması məsələsinə də toxunub:**

"Müdafiə etdiyim şəxslərin hamısı ictimai-siyasi fəallar olub. Onların da heç biri lüks yerlərdə qalmayıblar. Bu baxımdan orada lüks yerlərin olması barədə konkret məlumata sahib deyiləm. Ancaq belə ola bilir ki, kameranı bir nəfərlik edirlər və ya dustağı istədiyi adamla salırlar. Məsələn, 4 nəfərlik kamerada 1 və ya 2 nəfər salırlar. Kamerada televizor da olur və adi dustaqlara onun idarəedicisi verilmir. Ancaq bu kimi şəxslərə şərait yaradıb, televizorun idarəedicisini, radio, soyuducu, yeməyini qızdırması üçün qızdırıcı belə verirlər. Komfort dedikdə bunlar nəzərdə tutulur. Daha bundan da o tərəfə şərait yaradılması mənim zənnimcə mümkün deyil. Digər dustaqlara kənardan yemək qəbulu həftədə bir dəfədirsə, bunlara hər gün edə bilərlər. Belə məlumatlar var ki, bəzi adamlar üçün tez-tez yemək qəbul edib, hər gün telefon zənginə çıxarırlar. İçərinin havasını sərinləşdirməyə gəlincə isə kondisioner olmasa da ventilyator təşkil edirlər. Ümumiyyətlə, təcridxanada mərkəzləşdirilmiş istilik sistemidir. Bildiyim qədərilə bütün kameralarda soyuq havalarda temperatur normal olur. İstidə isə yalnız qeyd etdiyim kimi ventilyatorlardan istifadə edirlər. O da bütün kameralara aid deyil. Dustaqlara axşam saat 18:00-dan 10:00-a qədər televizora baxmağa icazə verilir. Ancaq kimə ki, lüks şərait yaratmaq istəyirlərsə, o adam hər saat televizora baxa bilir. Hətta yuxarıda da qeyd etdiyim kimi istədiyi kanala çevirmə imkanı olur. Şərait yaratsalar belə, kimsə dustağın yanına gələ bilməz. Ancaq görüş otaqlarında dustaqla görüşmək mümkündür. İnanmıram ki, Əli Həsənovun nəvəsinin də kamerasına kimisə buraxsınlar. Telefona gəlincə isə otaqda da mobil telefon saxlamağa icazə verdikləri zaman olub. İndi isə düşünürəm ki, bu iş ictimai nəzarətdə olduğu üçün bəzi məsələlərdə çəkinirlər. Qaydalara tamamilə zidd olan hallardan yayınsalar da yəqin ki, qalan şeylərdə güzəştə gedib, televizor, radio verilməsi baxımından şərait qurublar".

❑ **Əli RAİS**

# Marşrut xəttinin sahibinin evinə basqın

**Buzovna qəsəbəsində iş adamı İradə Əliyevanın evinə basqın edilib. Hadisə zamanı mənzildə ev sahibinin qulluqçusu olub. Evə daxil olan şəxslər qulluqçunun əl-qolunu bağlayaraq mənzildən 75 min manat, 11 min ABŞ dolları, 900 avro, 900 funt-sterlinq, 200 min manatlıq qızıl və "Vinçester" markalı ov tüfəngini aparıblar.**

Polisin araşdırmaları nəticəsində cinayətin Gürcüstan vətəndaşlarından ibarət 5 nəfərlik dəstə üzvləri tərəfindən törədildiyi məlum olub. Həmin şəxslərin tutulması istiqamətində əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, iş adamı kimi tanınan İ.Əliyeva bir neçə avtobus marşrut xəttinin sahibidir.



# Prezident məktəb binasının açılışında iştirak edib

## Bu il 71 məktəb inşa edilib, 12 məktəb binası əsaslı, 460 məktəb isə cari təmir edilib

**Sentyabrın 15-i məktəblərdə ilk zəng çalınacaq. Şagirdlərlə yanaşı məktəblər də yeni tədris ilinə hazırlaşır. Hər il onlarla məktəb təmir edilir, yenidən tikilir, açılışları olur. Həmçinin dərs ilinin ilk günü məktəblərdə müxtəlif tədbirlər keçirilir.**



Prezident İlham Əliyev sentyabrın 5-də Bakının Nizami rayonundakı 10 saylı tam orta məktəbin binasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyev məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Dövlət başçısına məlumat verilib ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1979-cu ildən fəaliyyət göstərir. Məktəbdə əsaslı yenidənqurma işləri "2014-2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən həyata keçirilib. Məktəbdə 49 sinif, 2 informatika, 3 laboratoriya otağı, idman və akt zalları, hərbi otaq və yeməkxana fəaliyyət göstərir. Yenidən qurulan məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar dərs vəsaitləri, internet, mebel-inventar və digər zəruri avadanlıqla təchiz edilib. Təhsil müəssisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

**Maraqlıdır, bəs bu il neçə məktəb açılıb, təmir edilib?**

Təhsil Nazirliyinin məlumatına görə, bu il 71 məktəb inşa edilib. Həmin məktəblərdən 61-i modul tipli məktəbdir. İlin sonunadək 44 rayon əhatə olunmaqla, 100 azkomplektli və qəzalı vəziyyətdəki kənd məktəbinin modul tipli məktəblərlə əvəz edilməsi nəzərdə tutulur. 12 məktəb binası əsaslı, 460 məktəb cari təmir edilib, 24 məktəb binasında isə cari təmir işləri davam etdirilir. 1 peşə, 1 uşaq-gənclər, 1 tədris-idman mərkəzi yeni tikilib. 3 ali təhsil müəssisəsinin kampusu və korpusu tikilib, əsaslı təmir olunub.

Qeyd edək ki, sentyabrın 6-dan etibarən isə təhsil işçilərinin sentyabr konfranslarının keçirilməsinə başlanılacaq. Təhsil naziri Mikayıl Cabbarov təhsil işçilərinin 2017-ci il sentyabr konfranslarının keçirilməsi haqqında müvafiq əmr imzalayıb. Əmrə əsasən, konfranslar 2017-2018-ci dərs ilində ümumi təhsil sahəsində qarşıda duran aktual vəzifələri müzakirə etmək və müvafiq təkliflər hazırlamaq məqsədilə təşkil olunacaq. Ümumi təhsil sistemində çalışan pedaqoji işçilərin rayon (şəhər) konfransları 5-12 sentyabr tarixlərində keçiriləcək. Konfranslar plenar və metodik bölmə iclaslarından ibarət olmaqla 2 gün ərzində təşkil ediləcək. Konfransların plenar iclaslarında "2016-2017-ci dərs ilinin yekunları və qarşıda duran vəzifələr" mövzusunda rayon (şəhər) təhsil şöbəsi (idarəsi) müdirlərinin məruzəsi dinlənilərək müzakirə olunacaq.

Paytaxt məktəblərindəki məktəbəhazırlıq qruplarına isə uşaqların qəbulu üçün elekton sistemdə 14 min 948 ərizənin onlayn qeydiyyatı aparılıb.

2017/2018-ci tədris ilində Azərbaycanda 1-ci siniflərə gedəcək şagirdlərin də sayı açıqlanıb. **Təhsil Nazirliyinin sektor müdiri Cəsarət Valehov** APA-ya bildirib ki, yeni tədris ilində respublikanın ümumtəhsil məktəblərinin I siniflərinə 164 min 945 şagird gedəcək: "Bu rəqəm ötən illə müqayisədə artıb. Belə ki, 2016/2017-ci tədris ilində ölkə üzrə 164 min 33 nəfər şagird birinci sinfə getmişdisə, 2017/2018-ci tədris ilində belə uşaqların sayı 164 min 945 nəfər olacaq".

**Qeyd edək ki, təhsil naziri ümumi təhsil müəssisələrində 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsi haqqında əmr imzalayıb. Təhsil Nazirliyindən verilən məlumata görə, əmrə əsasən, ümumi təhsil müəssisələrində 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsi "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunacaq.**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017


Əli Həsənov

# Azərbaycana 3 milyardlıq ittihama Bakıdan reaksiya: "Sorosun və ermənilərin işidir..."

## Azərbaycan hökuməti "Guardian" qəzetində dərc olunan qərəzli yazıya qarşı hərəkətə keçdi; Fransa telekanalına qarşı məhkəmə iddiası qaldırıldı...

**Son bir neçə ay ərzində Azərbaycan və Qərb dairələri arasında "atəşkəs"in əldə olunmasından bəhs olunurdu. Belə ki, xeyli müddətdir rəsmi Bakıya qarşı təzyiq kampaniyasını davam etdirən, hətta sanksiyalarla hədələyən bəzi çevrələr "silahı" yerə qoyub əməkdaşlığa üstünlük verirdilərsə, indi yenidən hücuma keçiblər.**

Sentyabrın 4-də Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı layihəsi tərəfindən hazırlanan yazı, bu yazıya istinadən "BBC News" saytında 2017-ci il sentyabrın 5-də dərc olunan "Azərbaycan - 3 milyard dollar dəyərində gizli çirkli fondu idarə edib" başlıqlı və "Guardian" qəzetində bu məsələ ilə bağlı gedən məqalələrlə əlaqədar artıq Azərbaycan hökuməti öz münasibətini bildirib.

"Azərbaycanın hakim elitası avropalı siyasətçilərə ödənişlər etmək və lüks əşyalar almaq üçün iki il ərzində 2.8 milyard dollarlıq (4.76 milyard AZN) gizli fondu idarə edib" - sözügedən təhqiqatda deyilir. Diqqətçəkən budur ki, həmin yazı dərhal bütün Ermənistan elektron mediasının manşetlərini "bəzəyib". İşğalçı ölkə Azərbaycana qarşı başlanmış qara piardan gen-bol yararlanmağa çalışır və bu kimi materialları tirajlamaqla özünün cinayətlərinə haqq qazandırmağa istəyir.

Azərbaycan prezidentinin Mətbuat Xidməti 2017-ci il sentyabrın 4-də Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı layihəsi tərəfindən hazırlanan yazı, bu yazıya istinadən "BBC News" saytında 2017-ci il sentyabrın 5-də dərc olunan "Azərbaycan - 3 milyard dollar dəyərində gizli çirkli fondu idarə edib" başlıqlı və "Guardian" qəzetində bu məsələ ilə bağlı gedən məqalələrə münasibət bildirib. Trend-in məlumatına görə, Mətbuat Xidmətinin yaydığı məlumatda deyilir: "Qeyd edirik ki, nə Azərbaycan Respublikasının Prezidenti, nə də onun ailə üzvlərinin adıçəkilən yazılarda göstərilən ittihamlarla heç bir əlaqəsi yoxdur. Prezidenti və onun ailəsini bu məsələyə cəlb etmək cəhdləri tamamilə əsassızdır, qərəzlidir və təxribat xarakteri daşıyır. Biz bilirik ki, bunların arxasında Azərbaycana və onun rəhbərliyinə qarşı beynəlxalq aləmdə dələduz, saxtakar, fırıldaqçı, yalançı imicini qazanan Corc Soros və onun əlaltıları dayanır. Bu gün Corc Sorosun çirkin əməlləri çox ciddi şəkildə araşdırılmalıdır. Onunla əlbir olan erməni lobbisi Azərbaycan prezidentinə, onun ailəsinə qarşı çirkin kampaniya aparır. Ancaq bu səylərə baxmayaraq, bunlar heç bir nəticə verməyib. Elə "Guardian" qəzetində gedən məqalənin müəlliflərindən birinin erməni əsilli Dina Naqapetyan olması faktı da bir daha onu göstərir ki, bu çirkin ittihamlar, o cümlədən dünya erməniliyinin növbəti mənfur hərəkətidir".


George Soros

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** OCCRP adlı qurumun xarici mediada yayılmış materialı ilə bağlı AZƏRTAC-a açıqlama verib. Ə.Həsənov bildirib ki, hüquqi, demokratik dövlət olan Azərbaycan Respublikasının sürətli inkişafı, müstəqil daxili və xarici siyasəti bəzi maraqlı dairələri, xüsusilə Ermənistan və erməni lobbisini ciddi narahat edir: "The Organized Crime and Corruption Reporting Project" (OCCRP) kimi qeyri-şəffaf və bəlli məqsədlər üçün yaradılmış qurumların qərəzli iddialar və subyektiv mülahizələrdən ibarət materialları məhz bu kimi anti-Azərbaycan mərkəzlərin və şəbəkələrin sifarişi əsasında hazırlanır, sonra isə dünya mediasında tirajlanır. Bunda başlıca məqsəd Azərbaycanın sağlam imicini zədələmək və onun haqqında mənfi beynəlxalq rəy formalaşdırmaqdır. Həmçinin, Azərbaycana dost münasibəti bəsləyən, ölkənin inkişafı, ictimai-siyasi həyatı, iqtisadi nailiyyətləri ilə bağlı pozitiv fikirlər bildirən tanınmış şəxslər - ictimai-siyasi xadimlər, rəsmi şəxslər, ekspertlər də hədəfə götürülür, heç bir əsas olmadan onların fəaliyyəti şübhə altına alınır. Araşdırmalar göstərir ki, OCCRP-nin yaydığı həmin materialın əsas müəlliflərindən biri milliyyətcə ermənidir. Həmçinin "Guradian"da dərc olunmuş məlum məqalənin müəllifləri sırasına Dina Negapetyants adlı erməni əsilli şəxs daxildir. Bu materialın dünya mediasında geniş yayılmasında da erməni lobbisi, onun təsiri altında olan anti-Azərbaycan şəbəkə və media nümayəndələri yaxından iştirak edirlər. Onu da qeyd etmək istərdim ki, əvvəlki dövrdə də Azərbaycana, ölkə prezidenti və onun ailə üzvlərinə qarşı bu kimi qərəzli iddialar irəli sürülmüş, ölkəmizlə bağlı çirkin kampaniya təşkil etmək cəhdləri olmuş, lakin onun sifarişçiləri və icraçıları öz məqsədlərinə çata bilməmişlər. Bir daha bəyan edirik ki, OSSRP-nin imzası ilə dövriyyəyə buraxılmış son iddialar qərəzlidir, əsassızdır, təxribat xarakterlidir və Azərbaycana qarşı bəlli dairələr tərəfindən təşkil olunmuş çirkin qarayaxma kampaniyasının tərkib hissəsidir".

Bu arada Fransa məhkəməsi Azərbaycan hökumətinin iki fransalı televiziya jurnalistinə qarşı iddiasına baxacaq. Məlumata görə, həmin jurnalistlər defamasiyada ittiham olunur. Beynəlxalq media qurumu isə bu iddianı Bakının "Fransaya senzuranın ixracı" cəhdi adlandırıb. Parisin Nanter bölgəsində yerləşən məhkəmədə Elise Lucet və Laurent Richard-a qarşı iddiaya baxılacaq. Jurnalistlər Azərbaycan hökumətini iki il öncə "diktatura" adlandırmaqla ona böhtan atmaqda suçlanırlar. "Sərhədsiz Reportyorlar" Təşkilatının (RSF) Şərqi Avropa və Orta Asiya bölümünün rəhbəri Johann Bihr məhkəmədə fransalı jurnalistlərin müdafiəsi məqsədiylə ifadə verəcək. RSF fransalı jurnalistlərə qarşı iddianı "Azərbaycan hökumətinin azad sözə nifrətini sərgiləyən qorxutma cəhdi" adlandırıb (BBC).

"Bəzən mətbuatda Azərbaycanla bağlı absurd iddialar əksini tapır. Məsələ araşdırıldıqda isə bunu təsdiqləyən mənbə ortaya qoyulmur. Hesab edirəm ki, növbəti analoji məqalə Azərbaycana qarşı aparılan xaricdəki müəyyən dairələrin kampaniyasının tərkib hissəsidir". Bunu "Report"a açıqlamasında hakim **Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şuranın üzvü, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə** bəzi KİV-lərdə dərc olunmuş "Azərbaycan - 3 milyard dollar dəyərində gizli çirkli fondu idarə edib" başlıqlı yazı ilə bağlı fikirlərini bildirərkən deyib.

**Deputat bildirib ki, bu yazılarda mənbə göstərilmir, iddia tirajlanır və Azərbaycan haqqında mənfi rəy yaradılmağa çalışılır:** "Şübhəm yoxdur ki, bunun arxasında Azərbaycanla bağlı istəkləri həyata keçməyən müəyyən dairələrin, o cümlədən erməni diaspor təşkilatları dura bilər. Azərbaycan həm daxili, həm də xarici siyasətində kifayət qədər şəffaf fəaliyyət göstərir. Azərbaycanda manatın sabitliyinin qorunması ilə xaricdən böyük investisiyalar cəlb edilir, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artır, Azərbaycan beynəlxalq aləmdə yüksək nüfuz qazanır. Azərbaycan regional-iqtisadi layihələrin təşəbbüskarıdır, bir çox dövlətlər bu layihələrdə iştirak edirlər. Azərbaycan mədəniyyəti, həqiqətləri dünya birliyində tanınır, qəbul edilir. Ölkə idmanı son dövrlərdə böyük uğurlar əldə edib. Azərbaycan hökuməti heç vaxt qeyri-qanuni addım atmaz. Buna ehtiyac da yoxdur. Sadəcə olaraq, Azərbaycanla bağlı hay-küy yaratmaq, ölkənin adını hansısa məsələdə hallandırmaq bəzi xarici dairələrin marağındadır. Bu, vaxtaşırı olub, növbəti dəfə də anti-Azərbaycan informasiyanın ortaya atılmasından təəccüblənmirik. Bu iddianı təsdiq edən fakt yoxdur, mümkün də deyil".

**A.Mirzəzadə onu da bildirib ki, dövlət orqanları ehtiyac yaranarsa, bu məsələni hüquqi müstəviyə çıxara bilərlər.**

Qeyd edək ki, Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı layihəsi tərəfindən hazırlanan yazı əsasında "BBC News" saytında "Azərbaycan - 3 milyard dollar dəyərində gizli çirkli fondu idarə edib" başlıqlı yazı verilib və "Guardian" qəzetində bu məsələ ilə bağlı məqalələr dərc olunub.

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıxov** "Yeni Müsavat"a bildirdi ki, bu materialların ortaya çıxması köhnə səbəblərlə əlaqədardır: "Yeni Azərbaycanın müstəqil siyasət yürütməsi, öz siyasətində daim milli maraqları güdməsi, dövlət başçısı cənab İlham Əliyevin gənc, müstəqil Azərbaycanı uğurla inkişaf etdirməsi və anti-Azərbaycan şəbəkənin Azərbaycanın bu inkişafı ilə razılaşmamasıdır. Azərbaycan balanslı siyasət yürüdür, dünya birliyinə uğurla inteqrasiya edir, qonşu dövlətlərlə, dünyanın digər aparıcı ölkələri ilə bir-birinin daxili işlərinə qarışmamaq, bir-birinə hörmət ruhunda əlaqələr qurur, inkişaf etdirir. Azərbaycan Avropanın enerji təminatında əsas iştirakçılardan biridir. Ölkəmiz heç vaxt nə özünün milli maraqlarından keçəsidir, nə kiminsə vassalına çevriləsidir, nə də kiminsə sözü ilə oturub-durasıdır. Əlbəttə, müstəqil siyasət və bu müstəqil siyasəti uğurla həyata keçirən cənab İlham Əliyev zaman-zaman hədəfə gətirilir. Bir vaxtlar çox çalışdılar ki, Azərbaycanı daxilindən qaynatsınlar, "rəngli inqilab" törətsinlər. Hətta bununla əlaqədar "5-ci kolon"un üzvlərindən də cəlb olundu - biz dəfələrlə bunun şahidi olduq- amma heç nə alınmadı. Çünki Azərbaycan xalqı öz liderı ətrafında sıx birləşib, birgə çalışır, qarşıda duran vəzifələri uğurla həyata keçirir, dövləti inkişaf etdirir, müdafiəsini möhkəmləndirir. Bunu görənlər bu dəfə başqa yola əl atıblar. Çalışırlar ki, cənab İlham Əliyevin beynəlxalq imicinə kölgə salsınlar, Azərbaycanın beynəlxalq nüfuzunu zədələsinlər. Azərbaycanın dostları, onun ədalətli mövqeyini dəstəkləyən bir sıra qurumlar var ki, onları Azərbaycandan rəncidə salmağa çalışırlar. İstəyirlər gözlərini qorxutsunlar ki, o insanlar Azərbaycana kömək göstərməsinlər. Bunlar hamısı əsassız, şər-böhtan xarakterli kampaniyadır və qurdalayanda hamısının içindən erməni çıxır. Əsasən da xoş niyyətlə deyil. Azərbaycanın müstəqilliyini qəbul etməyənlər, Azərbaycanı müstəqil dövlət kimi görməyənlər və öz vassallarına çevirmək istəyənlərin hərəkətləridir. Azərbaycan xalqı hər şeyi gözəl bilir, öz liderinin ətrafındadır və bu cür şər-böhtanlar zaman-zaman meydana çıxsa da, elə sabun köpüyü kimi partlayıb, heç bir nəticəsi də olmayıb, bu dəfə də belə böhtanlar eyni aqibəti yaşayacaq".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017

# Paytaxtımızın başçısını zurna-balabanla yola salırlar

**Azərbaycan şou-biznesinin tanınmış simaları Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbovun fəaliyyətini kəskin tənqid edən klip hazırlayıblar. Virtualaz.org-un məlumatına görə, məşhur müğənnilərin etirazını Sevda Yəhyayeva, Manana, Elnarə Xəlilova, Samir Piriyev, Nadır Qafarzadə, Tünzalə Ağayeva, Çingiz Mustafayev, İlhamə Qasımova və başqaları musiqiyə çevirib. Nəticədə, H.Abutalıbovun bütün təşəbbüslərinin lağa qoyulduğu istehzalı mahnı alınıb.**




## Abutalıbova qarşı “ulduz müharibəsi”nin şok sirri

### Şou-biznesin tanınmış simaları Hacıbala Abutalıbovun fəaliyyətini kəskin tənqid edən klip hazırlayıblar; Bakı merinin mövsümlə əlaqədar aktual olmayan yağış suları və ya yollardakı qazıntılara görə yada düşməsi səbəbsiz deyil

Mahnıda H.Abutalıbovun Bakıda bütün parkları necə məhv etdiyindən, sonra onları mərmərlə örtdüyündən bəhs olunur. Vurğulanır ki, sürüşkən mərmər üzərində yıxılan şəhər sakinləri “hər dəfə Hacıbalaya salam göndərirlər”.

Ulduzlar həm də H.Abutalıbovun Bakıda ağacları necə kəsdiyi və onların yerinə elektrik ağacları quraşdırdığı barədə oxuyurlar. BŞİH rəhbəri həm də onda ittiham olunur ki, şəhər sakinləri vaxtilə Bakıda olmuş təmiz havanın yerinə indi tozla nəfəs almağa məcbur ediliblər. Mahnıda şəhərdə eyni küçələrin bir neçə dəfə qazılıb yenidən asfaltlanması, həmçinin merin fəvvarələrə sevgisi və ingilis dilində danışması da ələ salınır.

Mahnı H.Abutalıbovun bütün dünyanın meri olması arzusu ilə bitir.

***

Bakı merinin paytaxtda indi mövsümlə əlaqədar aktual olmayan yağış suları və ya yollardakı qazıntıların sayının az olduğu bir vaxtda yada düşməsi ciddi maraq doğurur. Hətta bir-birlərinin ad günlərində toplaşaraq mahnı oxuması problematik olan şou əhlinin merə qarşı “həmrəyliyi” diqqət çəkir.

İstisna etmək olmaz ki, isti yay günlərində tamaşaçılardan ayrı düşən müğənnilər ölkədə populyar və tənqidlərə açıq olan paytaxt başçısını bəhanə edərək gündəmə gəlmək istəsinlər. Amma ölkənin siyasi palitrasını da yaxşı mənimsəmiş müğənnilərin BŞİH rəhbərinə tənqidi musiqi həsr etmələrinin arxasında sirr pərdəsinin ola biləcəyini də kimsə inkar edə bilməz.

Üstəlik, bu hazırlanmış klipin Abutalıbovun məktəb binalarına prezident İlham Əliyevlə baxış keçirdiyi bir gündə yayılması da diqqət çəkir. Bu, əlbəttə ki, bir təsadüf də ola bilər. Bəs, Hacıbala Abutalıbovun yaxın vaxtlarda vəzifədən ayrılacağı barədə yeni xəbərləri yada salsaq, merə “ulduz savaşı” necə, təsadüf kimi izah olana bilərmi?

Ötən həftə Nazirlər Kabinetində başlamış ixtisarlardan sonra mediada BŞİH-də gözlənilən kadr islahatları və merin də tezliklə vəzifəsini itirəcəyi ilə bağlı xəbərlər intensivləşib. Sirr deyil ki, son aylar H.Abutalıbovun səlahiyyətlərinin daralması prosesi sürətlənib ki, Dövlət Reklam Agentliyinin yaradılması və Bakı Şəhər İcra Hakimiyyətinin milyonların dövr etdiyi reklam bazarından çıxarılması buna sübut ola bilər. H.Abutalıbov reklam biznesini itirənədək də bir çox ciddi gəlir qaynaqlarından, faktiki, məhrum edilmişdi. Son olaraq iqtidarın əsas media orqanı kimi tanınan “Azərbaycan” qəzeti də BŞİH-in fəaliyyətini tənqid edən material dərc edib. Məqalədə Bakıdakı tikinti özbaşınalığı tənqid edilir və aydındır ki, əsas tənqid hədəfi məhz bu xaosa səbəbkar olan H.Abutalıbov göstərilir. “Azərbaycan” qəzetinin Hacıbala Abutalıbovun kreslosunun laxladığı bir zamanda tənqidi material dərc etməsi vaxtilə Ziya Məmmədovun rəhbərlik etdiyi Nəqliyyat Nazirliyi ilə də bağlı yazıları yada salırdı. O zamanda bu cür tənqidi materiallar dərc edilirdi ki, nəticədə Z.Məmmədov işsiz qaldı...

H.Abutalıbovun bu qədər tənqidlərə rəğmən vəzifədə qalması, iddialara görə, onun yerinə uyğun namizədin hələ ki olmamasıdır. 2001-ci ildən paytaxt təsərrüfatına rəhbərlik edən H.Abutalıbovdan narazılıq təbii ki, çoxdur. Bu, narazılıq təkcə Bakı sakinlərinin davranışlarında deyil, hakimiyyətin ən yüksək eşelonunda da nəzərə çarpmaqdadır.

**Bakı Şəhər İcra Hakimiyyəti postu siyasi hakimiyyət üçün mühüm əhəmiyyət kəsb edir, baxmayaraq ki, meriya əsasən təsərrüfat işləri ilə məşğuldur. Bakı meri olmaq istəyənlər də çoxdur və bu posta indiyədək onlarla məmurun adı hallanıb. Bu mənada merə qarşı “ulduz müharibəsi”ni “qara piar” kimi qiymətləndirənlər də var. Klip yayıldıqdan sonra redaksiyamıza bununla bağlı bir neçə zəng də olub ki, ən müxtəlif mənbələr müxtəlif adlar çəkirlər. Təbi ki, o adları yazmaqdan uzağıq, çünki elə şou-biznes əhlində də bir-birlərini istəməyənlər çoxdur. Amma fakt faktlığında qalır ki, heç kim Abutalıbova “ulduz hücumu”nu səbəbsiz hesab etmir. Əcəba, ulduzlar özü Hacıbala Abutalıbovun taleyi haqda nə deyir...**

❑ **“YM”**

# Sergey Lavrovun istefası gündəmə gəldi

### “Onun dövründə Rusiya XİN işçilərinin 30 faizə qədəri erməni mənşəli məmurlardan təşkil olunub, bu məmurlar da Rusiya xarici siyasətinin formalaşmasında Lavrov başda olmaqla önəmli rol oynayırlar, onların gedişi...”



**Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski xarici işlər naziri Sergey Lavrovun istefaya göndərilməsi məsələsini qaldırıb. Jirinovski deyib ki, beynəlxalq problemlər hələ də qalır. Rusiya daha sərt xarici siyasət yürütməlidir. Bunun üçün də Sergey Lavrov dəyişdirilməlidir: “Əgər mən prezident olsaydım, hər şeyi xarici işlər nazirinin dəyişdirilməsindən başlayardım. Bu gün ondan daha yaxşı olan insan bizə lazımdır”.**

Qeyd edək ki, Sergey Lavrov mənşəcə ermənidir və uşaqlıq dövründə soyadı Kələntəryan olub. Atasının erməni olduğunu Lavrov özü də dəfələrlə dilə gətirib və erməniləri sevdiyini deyib. Qarabağ məsələsi ilə bağlı açıqlamalarında da Ermənistanın xeyrinə olan açıqlamaları dəfələrlə onun dilindən eşitmişik. Məsələn, bir müddət öncə o bəyan etmişdi ki, Dağlıq Qarabağ problemi istisnasız olaraq Azərbaycanın daxili məsələsi deyil.

Sergey Lavrov sıradan siyasətçi, deputat, politoloq, jurnalist deyil, o, Rusiya kimi nəhəng bir dövlətin xarici siyasət idarəsinə başçılıq edir. XİN rəhbəri olaraq Lavrov Rusiyada Qarabağ məsələsi ilə birbaşa məşğul olan ən yüksək rütbəli dövlət yetkilisidir.

Bəs Sergey Lavrovun vəzifədən getməsi Rusiyanın xarici siyasətində, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə dəyişikliyə səbəb ola bilərmi?

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Sergey Lavrovun dövründə Rusiya Xarici İşlər Nazirliyinin işçilərinin 30 faizə qədəri erməni mənşəli məmurlardan təşkil olunub. Bu məmurlar da Rusiya xarici siyasətinin formalaşmasında Lavrov başda olmaqla önəmli rol oynayırlar. Sözsüz ki, Dağlıq Qarabağ probleminin həll edilməməsində bu məsələ ən başlıca maneələrdən biridir: “Lavrov bu yaxınlarda çıxış edərək dedi ki, guya Dağlıq Qarabağ probleminin həlli ilə bağlı pozitiv layihələr var imiş Qərb mane olub. Ardınca isə ABŞ-ın bu yaxınlarda Dağlıq Qarabağın həlli ilə bağlı olan mövqeyini heç bir yenilik olmayan mövqe kimi qiymətləndirdi. Halbu ki, həmin mövqedə kifayət qədər pozitiv məqamlar var. İstənilən pozitiv mövqeni bu şəxs dərhal vurur.

Lavrov Rusiyanın bir sıra dövlətlərlə münasibətlərinin korlanmasında və Rusiyanın təklənməsində ən məsuliyyət daşıyan siyasi fiqurlardan biridir. Jirinovski onu loyal siyasətçi hesab edir, lakin zahirən gülümsəmə və loyal görünmə hələ siyasətçinin loyallığına dəlalət eləmir. Rusiyanın xarici siyasət idarəsinin yürütdüyü siyasət kifayət qədər maksimalist, qarşıdurma yaradan siyasətdir. Burada Lavrovun çox böyük rolu var. Rusiya əgər dünya dövlətləri ilə münasibətlərini qaydaya salmaq istəyirsə, xüsusilə postsovet məkanındakı dövlətlərlə münasibətlərini daha yüksək səviyyəyə qaldırmaq istəyirsə bəsit və millətçilik azarı ilə zəhərlənmiş Lavrov tipli adamları və Xarici İşlər Nazirliyində kök atmış bu cür erməniləri oradan təmizləməlidir".

**Politoloq hesab edir ki, Rusiya XİN-ə Rusiyanın maraqlarına uyğun siyasəti formalaşdırmağı bacaran, dünyada gedən dəyişiklikləri, postsovet məkanındakı reallıqları nəzərə almağı bacaran şəxsin rəhbər gətirilməsinə böyük ehtiyac var:** “Lavrov müəyyən təcrübəyə malik olsa da erməni milli mənsubluğu ona Rusiyanın maraqlarına uyğun siyasət yürütməyə mane olur. Bu, özünü Dağlıq Qarabağ məsələsində bütün çılpaqlığı ilə nümayiş etdirir. Lavrov Dağlıq Qarabağ məsələsinin həllinə mane olur. Bu məsələdə Lavrov Ermənistanın xarici işlər naziri kimi davranır. Lavrov vəzifədən getsə Dağlıq Qarabağ münaqişəsinin həllinə Rusiya XİN-in yanaşma tərzi müəyyən qədər dəyişə bilər. Ona görə də Lavrovun dəyişilməsinə və onu tolerant, obyektiv bir diplomatın əvəzlənməsinə ciddi ehtiyac var”.

Qeyd edək ki, Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov da bu yaxınlarda mediaya müsahibəsində Azərbaycan-Rusiya əlaqələrinə ziyan gətirən üçüncü qüvvələr olduğunu açıqlayıb və həmin qüvvələrə Lavrovun rəhbərlik etdiyini deyib: “Həmin üçüncü qüvvələrin bir hissəsi Rusiyanın daxilindədir. Prezidentlərin görüşündə də bunun müzakirə olunan çox vacib bir məsələ olduğu haqda xəbərlər var. Bir neçə ay öncə yaranan gərginlik və onun mənbəyi elə bil Rusiyanın Xarici İşlər Nazirliyinin daxilində cəmləşib. Təhlillər onu göstərir ki, bu gərginliyə təkan verənlərdən biri Rusiyanın xarici işlər naziri Sergey Lavrovdur. Bilirsiniz ki, ictimaiyyət tərəfindən onun mövqeyi ciddi şəkildə tənqid olunur və mən də onun tənqidçilərindən biri idim. Hesab edirəm ki, etnik mənsubiyyət qeyri-balanslaşmış bir mövqeyə gətirib çıxarıb. Təbii ki, bu da öz növbəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində böyük bir maneə olub”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017

**Böyük Britaniya mətbuatında dərc olunan anti-Azərbaycan yazısı rəsmi Bakının, o cümlədən hakim Yeni Azərbaycan Partiyasının kəskin etirazına səbəb olub. Hakim partiyanın icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov "Yeni Müsavat"a müsahibəsində "Guardian" qəzetindəki məqaləni qərəzli saydığını bildirdi:**



# "Biz hər hansı ölkənin diktəsi ilə oturub-duran deyilik"

## **Siyavuş Novruzov:** "Azərbaycan xalqı bütövlükdə prezidenti dəstəklədiyi üçün bu cür addımlar mənasızdır"

## "Vaxtilə Leyla və Arif Yunusa belə maddələr tətbiq olunanda bunların xaricdə oturan havadarları məsələ qaldırdı ki..."

- Azərbaycanda olan iqtisadi inkişaf, ictimai-siyasi sabitlik, xalq-iqtidar birliyi bir sıra ölkələri narahat edir. Bu gün Azərbaycan bir stabillik adasıdır. Görürsünüz ki, Azərbaycanda başqa ölkələrdən fərqli olaraq, kənd təsərrüfatı müşavirələri keçirilir, məhsuldarlıqla, insanların işlə təmin olunması, əhalinin gəlirlərinin artması ilə bağlı proseslər gedir. İstər-istəməz bu, erməni lobbisini, onların himayəçilərini narahat edir və Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, dünyada səs-səda saldığı üçün bir mənfi imic formalaşdırmaq üçün canfəşanlıq göstərirlər. O baxımdan da müxtəlif ölkələrdə erməni lobbisinə qulluq edən, Azərbaycanda marağı olan, Azərbaycanın təbii sərvətlərindən güzəştli şəkildə istifadə etmək istəyən qüvvələr və Azərbaycanda möhkəm dövlətin, güclü liderin olmasını istəməyən qurumlar, təşkilatlar burada hər hansı bir zəif dövlətin, zəif bir hakimiyyətin olması arzusu ilə bu cür şayiələr yaymaqla məşğuldurlar. Buna da həm Administrasiya, həm cəmiyyət, həm ayrı-ayrı siyasi partiyalar, təşkilatlar, mətbuat orqanları özünün reaksiyasını veriblər və bundan sonra da davam olunacaq. Bu gün Ermənistanda yüz minlərlə insan aclıqdan, səfalətdən, iqtisadi vəziyyətin ağır olmasından, hərbi xunta rejimindən bezib ölkəni tərk edir. Bizi əhatə edən dövlətlər, Yaxın Şərq od-alovun içərisindədir. Amma Azərbaycan bu od-alov içərisində inkişaf edir, bu da təbii ki, müəyyən dövlətlərə sərf eləmir. İstər-istəməz onlar istəyirlər ki, Azərbaycanı da bu proseslərə qoşsunlar və Azərbaycanın bərabər şəkildə, hər bir dövlətlə siyasət qurmasını bunlar düzgün saymırlar. Hesab edirlər ki, Azərbaycan kiminləsə məsləhətləşməlidir, hansısa dövlətin himayəsində olmalıdır, onun diktəsi ilə oturub-durmalıdır və s.

***- Siyavuş bəy, bu kimi təzyiqlər və təhdidlər Azərbaycanı Qərbdən uzaqlaşıb Rusiyaya üz çevirməyə vadar edə bilərmi?***

- Biz ümumilikdə hər bir dövlətlə, beynəlxalq təşkilatla bərabər səviyyədə münasibətlərimizi qururuq və heç kimin diktəsi ilə oturub-durmuruq. Vaxtilə xatırlayırsınızsa, Azərbaycan prezidenti bəyanat vermişdi ki, Azərbaycanın ərazisindən İrana qarşı hər hansı bir hərbi müdaxiləyə, yaxud hərbi baza kimi istifadəsinə istifadə oluna bilməz. Yaxud Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq olunanda Bakı Moskva ilə münasibətlərini dəyişmədi. O cümlədən Qərblə bağlı məsələlərdə Azərbaycanın özünün tutduğu mövqe var. Əgər Qərbin hər hansı bir dövləti Azərbaycanla yaxşı münasibətdədirsə, onda Azərbaycan həmin dövlətlə yaxşı münasibət quracaq, o cümlədən ABŞ-la. Yox, əgər o münasibətlərdə qeyri-səmimilik varsa, bu məsələlər qarşılıqlı şəkildə tənzimlənəcək. O baxımdan biz hər hansı ölkənin diktəsi ilə oturub-duran ölkə deyilik. Azərbaycan öz siyasətini balanslaşmış şəkildə qurub və davam etdirir. Bu yaxınlarda ayrı-ayrı mətbuat orqanlarında Azərbaycan əleyhinə yazılar dərc etdirməyə başlayıblar. Təbii ki, qarşıdan gələn prezident seçkiləri ilə əlaqədar bunlar bir az da artacaq. Biz bunların hər birinə gərək hazır olaq. Bilməliyik ki, burada maraq nədən ibarətdir.

***- Azərbaycan əleyhinə rəyin formalaşdırılması sonucda sanksiya qərarlarına gətirib çıxara bilərmi?***

- Azərbaycana qarşı sanksiya tətbiq etmək üçün bunların əllərində heç bir əsası yoxdur. Əgər o dövlətlərin hər birinin ərazisində baş verən hadisələrə nəzər salsaq, görərik ki, onlarda on qat artıq şəkildə bu məsələlər əks istiqamətə yönəlib. Məsələn, insan hüquqlarının qorunmasından söhbət gedirsə, bütün günü insan hüquqları pozulur, milli azlıqlara qarşı çox böyük ayrı-seçkiliklər var. Dini azlıqlara qarşı çox böyük ayrı-seçkilik mövcuddur. Azərbaycanda bütün dinlər bərabər fəaliyyət göstərir, kimin nə deməsi, hansı kilsəyə getməsi, hansı məsciddə namaz qılmasına heç bir qadağa yoxdur. Amma biz şahidiyik ki, Avropa İttifaqının üzvü olan ölkələr niqab qadağası qoyur. Hətta geyimə qadağa qoyurlar. Tarixdə hansı dünya ölkəsində müəyyən olunub ki, parlamentlər geyim haqqında qərar qəbul edir? Yaxud da görürük ki, müxtəlif məscidlərə basqınlar olunur, İslam təriqətinin daşıyıcıları aşağılanır və s. O cümlədən insan hüquqlarının pozulmasının, irqi ayrı-seçkiliyin şahidi oluruq. Emiqrantlara qarşı münasibətdə görürük ki, ən aşağı insan hüquqları təmin olunmur, həmin insanları sanki konslagerdə saxlayırlar. Belə ölkələr hansı dövlətdəki insan hüquqları haqqında bəyanat verə, fikir söyləyə bilər? Heç biri! Yaxud söz və mətbuat azadlığı ilə bağlı onlardakı vəziyyətə baxın. Bizdə mətbuat nümayəndələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün onlara mənzil hədiyyə olunur, kimliyindən, hansı mətbu orqanın nümayəndəsi olmasından asılı olmayaraq. Onlarda hansı formada bu məsələlərə yanaşılır? Götürək bizi əhatə edən ölkələrdə, yaxud Qərb dövlətlərində...

***- Bu gün Qərb "Turan"agentliyinin direktoru Mehman Əliyevin həbsindən Azərbaycana qarşı geniş istifadə edir. Bir sıra həmkarlarınız da həbs qətimkan tədbirinin daha humanist tədbirlərlə əvəzlənməsini təklif edirlər. Siz bununla bağlı nə deyə bilərsiniz? Azərbaycana təzyiq üçün bəhanə verən həbs tədbirini girov müqabilində yüngülləşdirmək olmazmı?***

- Mən sizə deyim ki, Amerikada ən ağır cinayətlərdən biri vergidən yayınmaqdır. Çünki hesab olunur ki, vergidən yayınmaq vətəndaşın cibinə girməkdir və digər vətəndaşların sosial hüquqlarının pozulmasıdır. Yəni bu, ən ağır cinayətlər silsiləsinə daxil olan cinayətlərdən biri hesab olunur. O baxımdan indi bu, hüquq mühafizə orqanlarının işidir. Hüquq mühafizə orqanına hansısa bir dövlətin göstəriş verməyə ixtiyarı yoxdur. Bu gün həmin hüquq mühafizə orqanı hesab edir ki, bu cür mövqe seçmək daha məqsədəuyğundur. Onun əsaslandırılmasını istəyiriksə, yazılı şəkildə müraciət edə bilərik, qoy onlar öz arqumentlərini qeyd etsinlər, desinlər nəyə görə həbs qətimkan tədbiri seçiblər, yaxud başqasını seçməyiblər. Biz şahidik, vaxtilə Leyla və Arif Yunusa belə maddələr tətbiq olunanda bunların xaricdə oturan havadarları məsələ qaldırdı ki, bunlar müalicəsini davam etdirməlidir və s. Nəticəsi bu gün göz qabağındadır. Bunlar hüquq mühafizə orqanları qarşısında durub hesabat verməkəvəzinə, xaricdə öz villalarında oturub Azərbaycan əleyhinə işlər aparırlar.

***- Amma Mehman Əliyevin vətənpərvərliyinə, Azərbaycana bağlı olmasına şübhə edənlər yoxdur...***

- Allah hamının qapısını açsın, hamının işini avand eləsin! Bu, sırf hüquq mühafizə orqanlarının işidir. Onlar hesab edirlər ki, bu, belə olmalıdır. İndi əgər kimsə bunun əleyhinədirsə, hüquq müdafiə təşkilatları, digər qurumlar var, müraciət etsinlər ki, bu addımı nəyə əsasən seçmişiniz?

***- Yuxarıda dediklərinizdən belə aydın oldu ki, Qərb mətbuatındakı bu yazılar həm də 2018-ci il seçkiləri ərəfəsində Bakıya təzyiq xarakterlidir. Paralel olaraq şimaldan da təzyiqlər var. Belə çıxır həm Rusiya, həm də Qərbdən təzyiqlər var. Bir-birinə qarşı olan bu paytaxtların Azərbaycanda "stavka" elədiyi adamlar kimlərdir?***

- İstənilən ölkə istəmir ki, öz yaxınlığında, ətrafında və dünyada iqtisadi cəhətdən güclü, potensiallı, imkanlı dövlətlər olsun və öz təbii sərvətlərini müstəqil şəkildə öz xalqının maraqlarına yönəltsin. Biz İraq, Liviya hadisələrində və digər dövlətlərin nümunəsində bunun şahidi olduq. Onlar deyir ki, bu məsələlərlə biz məşğul olmalıyıq. Yəni dünyanın yenidən bölüşdürülməsi siyasəti var ki, hər əsrin əvvəlində bu, baş verir, bəzi dövlətlər də bu iddialara düşürlər. O baxımdan istər-istəməz müxtəlif vasitələrlə təsir mexanizmlərini işə salacaqlar. Amma təbii ki, Azərbaycanda hakimiyyətin mənbəyi olan xalq özü öz hakimiyyətini müəyyən edir. Zəif ölkələrdə və xalqla iqtidar arasında anlaşılmazlıq olduqda kənardan hər hansı müdaxilələr baş verə bilir. Azərbaycan xalqı bütövlükdə Azərbaycan prezidentini dəstəklədiyi üçün bu cür addımlar mənasızdır.

❑ **Elşad PAŞASOY**



# YAP-dakı konfranslar qurultaya hazırlıqdır?

**"Hazırda Yeni Azərbaycan Partiyasının (YAP) Nizamnaməsinə əsasən, rayon təşkilatlarında konfranslar keçirilir. Bu konfranslarda regional təşkilatların rəhbərliyi partiya qarşısında hesabat verir. Həmin konfransların qarşıdan gələn prezident seçkilərinə birbaşa aidiyyatı yoxdur. Amma keçirilən konfranslarda qarşıdan gələn prezident seçkilərinə hazırlıq, ötən seçkilərin nəticələri, seçkiləri daha da yaxşı keçirmək üçün işlərin təkmilləşdirilməsi məsələsi ümumən müzakirə edilir".**

Bu sözləri modern.az saytına açıqlamasında **YAP-ın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə** deyib. YAP rəsmisi bildirib ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərində hakim partiyanın namizəd məsələsi bu gün gündəlikdə deyil. "Hazırda bu məsələ partiyanın gündəliyində deyil. Əlbəttə ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərinə YAP öz namizədini irəli sürəcək".

**A.Mirzəzadə YAP-ın VI qurultayının keçirilməsinin də gündəlikdə olmadığını deyib:** "Bu barədə hər hansı bir məlumatım yoxdur. Ona görə də partiyanın qurultayının nə zaman keçiriləcəyi barədə məlumat verə bilmərəm".

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017

# Mehman Əliyevin girov müqabilində azadlığı üçün müraciət edildi

## Ölkə mediasında “Mehman 10 günlüyü” keçiriləcək

**Vəkil Fuad Ağayev "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin həbsinin girovla əvəzlənməsi barədə Yasamal Rayon Məhkəməsinə vəsatət verib. Bunu F.Ağayev sosial şəbəkədəki statusunda bildirib. Vəkilin sözlərinə görə, qanunvericiliyə əsasən məhkəmə üç gün ərzində vəsatətə baxmalıdır.**

“Ölkə mediasında ”Mehman 10 günlüyü" keçirmək niyyətindəyik". Bu sözləri AzadlıqRadiosuna “Mehman Əliyevə Azadlıq Komitəsi”nin təmsilçisi Əvəz Zeynallı bildirib. Əvəz Zeynalının sözlərinə görə, 10 gün ərzində Mehman Əliyevlə bağlı ardıcıl şəkildə yazılar və başqa materiallar nəşr etmək fikrindədirlər. Ə.Zeynallı deyib ki, üzərində M.Əliyevin əksi olan köynəklərin hazırlanması da nəzərdə tutulur: “Jurnalistlərdən belə təklif gəlib ki, Mehman Əliyevin müdafiəsi ilə bağlı media mənsublarının aksiyası da keçirilsin” deyə, komitə üzvü bildirib.

Ə.Zeynallı deyib ki, beynəlxalq ictimaiyyətin M.Əliyevin həbsinə diqqətini daha da artırmaq məqsədi ilə beynəlxalq qurumlarla işi gücləndirmək niyyətindədirlər.

“Mehman Əliyevə Azadlıq Komitəsi” avqustun 28-də təsis edilib.



Xatırladaq ki, Mehman Əliyev avqustun 24-də saxlanılıb. Növbəti gün ona qarşı CM-in 213.1 (vergi ödəməkdən yayınma), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 192.2.2 (qanunsuz sahibkarlıq) maddələri ilə ittihamlar irəli sürülüb. Məhkəmə onun barəsində noyabrın 7-dək həbs qətimkan tədbiri seçib. M.Əliyev bütün ittihamları rədd edərək onları siyasi motivli adlandırıb.

**Beynəlxalq təşkilatlar M.Əliyevin həbsini pisləyiblər və onun dərhal azadlığa buraxılmasına çağırıblar. ABŞ Dövlət Departamenti də M.Əliyevin dərhal azad edilməsinə çağırıb. Fransa və Böyük Britaniya XİN-lər M.Əliyevin həbsi ilə bağlı narahatlıqlarını bildiriblər və Azərbaycan hakimiyyətini insan hüquqları sahəsində öz beynəlxalq öhdəliklərinə əməl etməyə çağırıblar.**

❑ **Sevinc TELMANQIZI**

# Siyasətdə durğunluq nə zaman bitəcək?

**Ölkənin siyasi həyatında nəzərəçarpacaq dərəcədə durğunluq müşahidə edilir. Siyasi həyatda müşahidə olunan durğunluq, siyasi təşkilatların qeyri-aktivliyi müxtəlif amplualarda təhlil olunur. Sanki hamı bu vəziyyəti kənardan izləməyə məhkum edilib. Azərbaycan siyasətində 20 ildən artıqdır mövcud olan müxalif siyasi partiyaların illər öncəki aktivliyindən əsər-əlamət qalmayıb. Ölkədə tək ənənəvi müxalifət partiyaları yox, bütün partiyalar demək olar siyasi durğunluq içərisindədir. Bu passivlik hətta hakim partiya olan YAP-da da müşahidə olunur.**



**Əli Əliyev:** “Təəssüf ki, müxalifət savad nümayiş etdirmir”



**Tural Abbaslı:** “Yaxın aylardan aktiv siyasi dönəmə qədəm qoyacağıq”

Bəs Azərbaycanda siyasi həyatda durğunluq nə zaman kimi davam edəcək?

**VİP sədri Əli Əliyev** bildirdi ki, siyasətdə bataqlıq vəziyyətini xatırladan susqunluq getdikcə aradan qalxacaq. Vəziyyət ümidsiz deyil: “İqtidara indiki dəngəni qorumaq üçün xeyli vəsait lazımdır. Həmin maliyyə axınları artıq 2 ildir ki, tükənib. İndiki şəraitdə hakimiyyət islahatlara getməyə məhkumdur. İslahatlar isə ya obyektiv şəkildə ölkənin simasını dəyişəcək, ya da ki, hakimiyyəti dəyişəcək. Yaşlı nəsil belə dəyişikliyi bir dəfə yaşayıb. Hakim qüvvə tarixi məsuliyyətini dərk edib, düzgün davranmalıdır. Vəziyyəti davamlı şəkildə dondurmaq mümkün deyil. Qarşıda gələn prezident seçkilərində namizəd, onunla da bütün fəlsəfə dəyişməlidir. Həmin islahatlar nəticəsində ölkənin müqəddəratı müəyyən olunacaq. Təəssüf ki, müxalifət bu ağır dönəmdə savad nümayiş etdirmir. Belə vəziyyətdə müxalifətin konsolidasiyası prosesi YAP monopoliyasından çıxarar, beynəlxalq səviyyədə diqqəti Azərbaycana yönəldərdi. İçi biz qarışıq vəzifəmizin öhdəsindən gələ bilmirik. Təəssüf... Belə şəraitdə müxalifət yalnız statist ola biləcək. Qarşıda zaman var. İnanaq ki, müxalifətin vahid platforma formalaşdırmaq funksiyası icra olunacaq”.

**AĞ Partiyanın sədri Tural Abbaslı** isə bildirdi ki, siyasi durğunluq növbəti prezident seçkilərinin startı ilə aradan qalxacaq: “Buraya son zamanlar hakimiyyətdaxili məsələləri və bunların fonunda yaranacaq yeni siyasi durumu da əlavə etsək əminliklə deyə bilərik ki, yaxın aylardan etibarən kifayət qədər aktiv siyasi dönəmə qədəm qoyacağıq. Ümid edirəm ki, bu seçkilər digər seçkilərdən aktivliyinə və nəticələrinə görə fərqlənəcək. Belə ki, yeni dünyanın yeni çağırışlarına cavab verə biləcək yeni siyasi münasibətlərin formalaşması zamanı çatıb. Unutmayaq ki, neftin qiymətinin və hasilatının kəskin şəkildə aşağı düşməsi şəraitində ölkəni əvvəlki şərtlər və siyasi münasibətlərlə idarə etmək mümkün olmayacaq. Son dönəmlər hakimiyyət daxili baş verən bəzi siyasi gedişləri analiz edəndə görürük ki, bunu hakimiyyət daxilində qəbul edənlər də az deyil. İstənilən halda istər siyasi aktivlik istərsə də siyasi passivlik hökm sürsün, əsas odur ki, vətənimiz, millətimiz üçün xeyirli nədirsə o olsun”.

Partiya sədri hesab edir ki, siyasi həyatda durğunluğun əsas səbəbi xalqın siyasi proseslərdən çəkilməsidir. Siyasi səhnənin əsas aktyoru olmalı olan xalq siyasətə, siyasətçilərə, siyasi proseslər vasitəsi ilə nələrinsə dəyişə biləcəyinə inamını itirib. Xalqın iştirakı olmadan isə hansısa siyasətdən ümumiyyətlə danışmaq gülüncdür: “Əslində biz bu məsələdə xalqın inamının ölməsində kimin daha çox günahı var məsələsini araşdırmalıyıq. Bu məsələdə isə məncə hər iki cinahın-müxalifətin və iqtidarın günahı kifayət qədərdir”.

❑ **Etibar SEYİDAĞA**



# Varlıların benzini bahalaşdı, növbədə dizel ola bilər

## İqtisadçı: “Daha az benzin sərfiyyatı olan, ”ekonom" maşınlara tələbat arta bilər"

**Azərbaycanda “Aİ-98 Super” markalı benzinin qiyməti bahalaşıb. “Aİ-98 Super” benzinin qiyməti 10 qəpik artaraq 1,2 manatdan 1,3 manata yüksəlib.**

Qeyd edək ki, ötən aylarda Azərbaycanda Aİ-92 markalı benzin də 20 qəpik bahalaşaraq, 90 qəpik olmuşdu.

Artıq bununla digər yanacaq növlərinin qiymətinin artması da gündəmə gəlib. Növbədə “Premium” markalı benzinin və dizelin qiyməti də ola bilər.

**İqtisadçı ekspert Qubad İbadoğlu** da “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Aİ-92 markalı benzinin bahalaşmasından sonra bütün bunlar gözlənilən idi: “Aİ-92 markalı benzinin bahalaşmasını dəyərləndirərkən də biz demişdik ki, bu bazardakı digər benzin növlərinin və neft məhsullarının qiymətinə təsir göstərəcək. Təbii ki, bazarlarda bir məhsulun qiyməti artıbsa, alternativ məhsulların da qiymətinin artması iqtisadi qanunauyğunluqdur. Hazırki bahalaşma da sonuncu deyil. ”Premium" markalı benzinin qiymətində də bahalaşma olacaq. Bu məhsulların qiymətinin formalaşması əsasən məsrəf elementləri üzərində qurulur. Bir markalı avtomobil benzininin bahalaşması digər markalı benzinin qiymətinin isə sabit qalması iqtisadi qanunlara ziddir".

**Q.İbadoğlu hesab edir ki, yaxın zamanlarda dizel yanacağının da qiyməti arta bilər:** “Mümkün deyil ki, dizel yanacağı ilə Aİ-92 və ya Aİ-98 benzininin qiyməti arasında bu qədər fərq olsun. Təbii ki, Azərbaycan hakimiyyəti dizelin bahalaşması üçün kənd təsərrüfatında əkin-biçin mövsümünün başa çatmasını gözləyir. Mövsüm başa çatandan sonra bunu həyata keçirəcək. Çünki dizel yanacağı həm də kənd təsərrüfatı maşınlarında əhəmiyyətli yanacaq növü hesab olunur".

**İqtisadçı onu da vurğuladı ki, Aİ-98 və “Premium” benzininin bahalaşması regionda və dünya bazarında baş verənlərlə əlaqəlidir:** “Son günlər dünya bazarında neftin qiymətində cüzi də olsa artım var. Azərbaycan hökuməti o qiyməti tənzimləmək üçün müxtəlif vasitələrə malikdir. Aksiz dərəcələrini artırıb-azaltmaqla qiymətə təsir göstərə bilər. Bu halda da yanacaq məhsulları bazarında əsas qiymət artımı gözləntisi dizel yanacağı ilə bağlı olacaq. Yəqin ki, müəyyən müddətdən sonra biz dizelin qiymətinin artması ilə qarşılaşacağıq”.

**Bütün bunların avtomobil bazarına təsirinə gəlincə, iqtisadçı bildirdi ki, orada vəziyyət onsuz da dəyişib:** “Avtomobil bazarında bir vaxtlar mühərrikinin gücü yüksək olan maşınların qiyməti daha sürətlə bahalaşırdı. Ancaq son proseslərdən sonra, hətta Aİ-92 markalı benzinin bahalaşmasının ardından mühərrikinin gücü yüksək olan avtomobillərin qiyməti ucuzlaşmasa da, onların satışında durğunluq yaratdı. İndiki halda ”Aİ-98" həmin avtomobil sahiblərinin ən çox istifadə etdiyi benzin markasıdır. Düşünürəm ki, bu həmin avtomobillərin ucuzlaşmasına səbəb olacaq. Bu da əks təsir effekti yarada bilər, mühərrikinin gücü az olan ikinci əl avtomobillərin satış qiymətinin artmasına gətirib çıxara bilər. Daha az benzin sərfiyyatı olan, “ekonom” maşınlara tələbat arta bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017



# Xarici maliyyələşdirən ağ qüvvələr

Zamin HACI
zaminhaci@gmail.com

**"Mənə manat verin, dünyanı tərpədim"**
*(Arximed Sirakuzbəyli)*

**Bütün dünya imperator Vespasianın "Pulların iyi yoxdur" afyorizminə sədaqət nümayiş etdirirsə, biz yazıq azərbaycanlılardan nə gözləmək olar? Yenə hansısa beynəlxalq qurum bizim pulların xaricdə yuyulmasından yazıb. Yenə hökumət deyib ki, bunu yazanlar ermənilərdir, bizim inkişafı istəməyən qara qüvvələrdir.**

Əlbəttə. Kim şübhə edir? Axırıncı şübhə edən Mehman müəllim idi, Kürdəxanı tərəfdə bizə əlini yelləyib döngəni buruldduğunu görənlər varmış. Hərçənd, istəsən "Turan" agentliyinin şefini marsiançıkların oğurlayıb uçan boşqabda kabab elədiyini telekanalizasiyada göstərmək olar, hamı da inanar. Deyirlər, bu yaxında bir telekanalizasiyamız Markelin Hitlerin qızı olduğunu "isbat edibmiş". Niyə də yox. Axmaq dünyadır, nə desən olar.

Bəlkə də Mehman müəllimi də elə o ermənipərəst qüvvələr oğurladı ki, anti-Azərbaycan təbliğatlarını gücləndirsinlər. Axı dünyada informasiya savaşı gedir. Bir agentliyimizin döyüş nöqtəsi hazırda susdurulub. Kim cavab verəcək? İnformasiya cəbhəsində təbəddülat yoxdur. Remark sağ olsaydı pulunu verərdik, Azərbaycanın dünyada rolu haqda roman yazdırardıq. Eh... Bəlkə təzədən Əkrəm müəllimi maliyyələşdirək, yazsın? Bu projeni düşünün.

Məncə, anti-Azərbaycan qüvvələr də çox axmaqdırlar. Hətta mənə elə gəlir bizim hökumət onları da maliyyələşdirir. Ki, belə düşük hesabatlar hazırlasınlar. Azərbaycandan xaricdə hansısa lobbilərin şübhəli 3 milyard dollar alması şəxsən biz vətəndaşları qəti narahat eləmir. Bundan pis olan, dilxorçuluq yaşayan beş-on nəfər ola, ya olmaya. *(Etiraf edim, narahat olanlardan biri mənəm. Gərək qanımı analiz etdirim).* Əksinə, bizdə hamı düşünür ki, hökumətimiz əcəb edir xariciləri satın alır. Puluna minnət. Haqq-hesabını ödəyib istənilən avropalını minib çaparıq. Onların ən özündən deyən, ən bərkgedənini də pulla alarıq, qapımızda tula edərik. Tərif vurduğunuz Avropa, Qərb dəyərləri bu deyilmi? Alın. 1 milyon dollara bütün Fransa tarixini dəyişdirərik, Volter qəbrində dombalaq aşar, Robespyer intihar edər, canım sənə desin, Napoleon Ramzan Kadırovun qvardiyasında əsgər olar.

Özü də dinəndə hamısı beynəlxalq terrorizmin maliyyələşməsindən, çirkli pullardan, təhlükəsizlikdən-zaddan dəm vururlar. Bəs hanı? O banklar o pulları ora bura köçürdəndə niyə mənbəyini, mənsəbini soruşmayıblar? Bəlkə pulları elə Myanmaya aparacaqlar? (İndi modda bu respublikadır, ona görə onu yazdım).

Biz tarixən iynə kimi - aləmi bəzəyib, özümüz lüt gəzmişik. Keçən il bir rəqəm açıqlanmışdı, deyir 19-cu əsrdən bəri 1 milyard ton Azərbaycan nefti dünya bazarına çıxarılıbdır. Fantastik rəqəmdir. Miqyas təsəvvürə gəlmir. Ancaq bunun nə qədərindən xeyir görmüşük? Lap tutaq ki, aeroport yolumuz çəkilib, Bakının mərkəzində də Tağıyevin, Nağıyevin bir-iki binası qalıb. Qalanı hanı?! Bir milyard ton neftlə 3-4 təzə respublika da qurmaq olardı! Rus daşıyıb, ingilis daşıyıb, erməni daşıyıb, yəhudi daşıyıb, gürcü daşıyıb... Biz də ağzımızı ayırıb baxmışıq. Gah Anqolaya yardım eləmişik, gah Vyetnama. Sovet vaxtı pambığı qəpik-quruşa alıb, əvəzində keçici qırmızı bayraq alırdıq. Həmin pambıqdan Moskvada tikilən köynəyi isə bizə neçə rubla sırıyırdılar. İndi də mexanizm dəyişməyib. Sadəcə, rublu dollar, qırmızı bayrağı trikolor, Qalina Brejnevanı İrina Bokova, Moskvanı da AŞ PA əvəz edir.

Yenə yazıram, bu cür tənqidlərin heç bir effektliyi yoxdur. Əgər nəsə əldə etmək istəyirsinizsə, bizim hökumətin düzgün işlədiyini yazın. O zaman camaat çaşıb qalacaq. Fikirləşəcəklər, görəsən ortada nə fırıldaq hazırlanır. Deyəcəklər bunlar düzgün işləsə, bəs biz nə ilə dolanacağıq. Sezon indi açılır, gələn həftə iki toya dəvətliyik. Dərs ili də başlanır, uşaq repetitor yanına getməlidir...

**Biz özümüz də buralarda elə xarici kimi bir şeyik. Ziyalı yoldaşlar yaxşı, bəzəkli adını da tapıblar: "daxili mühacirət"...**

# Kremldən ermənilərə ağrılı xəbərdarlıq

**Ermənistanın son anda Gürcüstandakı NATO təlimlərində iştirakdan (3-10 sentyabr) imtina eləməsi aparıcı KİV-lərin əsas mövzularından birinə çevrilib. Məsələni müzakirə üçün daha həssas edən xüsusilə iki məqama diqqət yetirilir: onlardan biri rəsmi İrəvanın məhz təlimlər başlayan gün - sentyabrın 3-də imtina qərarı verməsi, digəri isə bu qərarın prezident Serj Sərkisyanın Soçidə Putinlə görüşündən az sonraya təsadüf eləməsidir.**




# Rusiyanın rəsmi nəşri Ermənistanı Azərbaycanla hədələdi: "Unutmayın ki..."

## Pravda.ru Moskva ilə ikili oyun oynayan vassal ölkəyə öz yerini göstərib sərt xəbərdarlıq elədi: "Xəyanətkar və nankorlar, unutmayın ki, apreldə Azərbaycan ordusunun hücumunu Putin dayandırdı"; Serj Sərkisyanın Soçiyə çağırılmasının əsas səbəbi üzə çıxır...

**Əksər analitiklər, o cümlədən erməni siyasi şərhçilər Ermənistanın imtina qərarının arxasında məhz Rusiyanın iradəsinin, daha doğrusu, qadağasının dayandığına əmindirlər. Beləliklə, "Yeni Müsavat"ın yazdıqları bir daha öz təsdiqini tapmış oldu ki, Rusiya öz satellitinin Qərbə, NATO-ya reveranslarına davamlı şəkildə göz yummayacaq və ələlxüsus da Moskvanın ABŞ-la münasibətlərinin gərginləşməsi fonunda İrəvanın bu cür şıltaqlıqları ona baha başa gələ bilər.**

Rusiyanın ekspert çevrələrində və KİV-lərində məsələyə artıq bu prizmadan baxmağa başlanılıb. Faktiki şəkildə Rusiya hesabına mövcud olan və silahdan tutmuş, təbii qaza kimi Rusiyadan güzəştli qiymətə hər şey alan, xarici sərhədlərini rus əsgərlərinin qoruduğu vassal ölkənin bu qəbildən xəyanətlərinin cavabı verilməyə başlayıb. Eyni zamanda rəsmi İrəvana Qarabağ məsələsi də daxil, sərt xəbərdarlıqlar və xatırlatmalar edilir - həm də Rusiyanın nüfuzlu hökumət nəşrləri səviyyəsində.

***

"2015-ci ildə Ermənistan Avrasiya İqtisadi Birliyinə, ondan əvvəl - 1992-ci ildə isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulub. Bunun qarşılığında isə o, Rusiyadan ticari imtiyazlar və hərbi yardımlar alıb. Ancaq bu yaxınlarda bəlli oldu ki, İrəvan üçün Avropa ilə inteqrasiya və NATO ilə əməkdaşlıq prioritetə çevrilib. Və burda Moskva daha Ukraynadakı səhvləri təkrarlamayacaq".

Musavat.com-un məlumatına görə, bu barədə Rusiyanın hökumət nəşri olan Pravda.ru-dakı tənqidi məqalədə deyilir. "İrəvan Kiyevin yolu ilə getdi, ancaq onu dayandırdılar" başlıqlı məqalədə daha sonra Ermənistanın Avropa Birliyi (AB) ilə assosiasiya sazişi imzalamağa hazırlaşdığı xatırlanır: "Bundan öncə isə Ermənistan NATO ilə individual əməkdaşlıq proqramına daxil olub. Proqram alyansla regional təhlükəsizlik, Ermənistanın hərbi doktrinası, müdafiə və büdcə planlamalarının təkmilləşdirilməsi ilə bağlı məsləhətləşmələri, habelə Kosova və Əfqanıstanda sülhməramlı missiyalarda iştirakı özündə ehtiva edir. NATO-nun son sammitlərinə Ermənistan müşahidəçi kimi qatılıb. Bu isə artıq iki stulda oturmaq cəhdi yox, birbaşa Rusiyaya xəyanətdir. Zamanı çatıb ki, deyək: gedin və NATO-dan xahiş edin ki, sizin problemləri Türkiyə və Azərbaycanla həll eləsin".

Məqalədə ardınca deyilir: "Maraqlıdır ki, İrəvanın özünün "çoxvektorluğu" ona Rusiyanın çoxvektorluğundan inciməyə mane olmur. Söhbət Türkiyə ilə iqtisadi əlaqələrin qaydaya salınmasından, Ankaranı Avrasiya Birliyinə üzv qəbul etmək planlarından və Azərbaycana silah satışından dolayı narazılıqdan gedir. Özü də Bakı silaha görə Rusiyaya nağd pul ödəyirsə, İrəvan onu Rusiyadan Rusiyanın öz kreditinə, yəni borc kimi alır. İşə bax ki, cənablar, balaca və regional bir ölkə gör, öz istəklərinə necə hər yerdə çatır! Anlamaq lazımdır ki, AİB, KTMT - sizin üçün bir flakonda olan keçmiş SSRİ və yem axuru deyil, yarış və qarşılıqlı yardımdan keçən inteqrasiyadır".

Bu sitatdan sonra yazıda işğalçı ölkəyə daha sərt xəbərdarlıqlar yer alıb: "Erməni dostlara həmçinin, xatırlatmaq istəyirik ki, ötən ilin aprelində Dağlıq Qarabağda Azərbaycan ordusunun hücumunu məhz Vladimir Putin dayandırdı, Angela Merkel yox. Rusiya ermənilərə yaxşı münasibətini tarixən göstərib. Heç olmasa, bunu yada salın ki, 1915-ci ildə Rusiya ordusunun Vanın özünümüdafiə qüvvələrinə köməyi nəticəsində 200 min erməni Osmanlı İmperiyasının "genosid"indən (dırnaqlar bizimdir - red.) qurtula bildi. Bəs, həmin "genosid"in Almaniyadan 20 il öncə - 1995-ci ildə Rusiya tərəfindən tanınmasının dəyəri yoxdur?! Əgər erməni tərəfi yaxşı düşünüb daşınsaydı, ona aydın olardı ki, Rusiyanın Türkiyə ilə yaxınlaşmasını da mühakimə eləmək yox, alqışlamaq lazımdır. Çox sadə bir səbəbə görə: Moskva və Ankara siyasi anlamdan daha çox, iqtisadi planda yaxınlaşır və İrəvan da bundan qazana bilər. Axı, Ermənistanın Türkiyə ilə sərhədi bağlıdır. O zaman niyə də Putindən Ərdoğanın mövqeyinin yumşaldılması üçün xahiş edilməsin?"

Məqalənin sonunda Ermənistanın NATO təlimlərindı iştirakdan imtinası təqdir edilir: "Görünür ki, sağlam düşüncə hər halda üstün gəlib ki, Ermənistan belə bir qərar verib", - deyə nəşr vurğulayır.

***

**Bir daha xatırladaq ki, Pravda.ru Rusiyada özəl nəşr deyil, hökumətin KİV-idir, rəsmi saytdır. Başqa sözlə, məqalədə Ermənistan əleyhinə yer alan bütün tənqid və iradlar, həmçinin Dağlıq Qarabağla bağlı xəbərdarlıqlar və hədələr rəsmi Moskvanın mövqeyini və iradəsini ifadə edir.**

Bu, həm də o anlama gəlir ki, işğalçı Ermənistanın Rusiya orbitindən azacıq uzaqlaşması ona olduqca baha başa gələcək və İrəvan bu haqda heç düşünməsin də. Xüsusən də Rusiya-ABŞ münasibətlərinin gərginləşməyə üz tutduğu və tezliklə normallaşmasının gözlənilmədiyi dönəmdə Ermənistanın Qərbə, NATO-ya, ABŞ-a növbəti reveransları işğalçı ölkə üçün gözlənilməz bəd sürprizlərlə sonuclana bilər.

**Əlavə edək ki, payızda (noyabrda) İrəvan Avropa Birliyi ilə çərçivə sazişi imzalamağa hazırlaşır. İkinci cəhddə. Bu, yəqin ki, o zamana təsadüf edəcək ki, Moskva-Vaşinqton münasibətləri daha dramatik xarakter alacaq. O zaman İrəvanın bu cəhdi alınacaqmı? İki ay gözləyək.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017



# Ermənistanın NATO təlimlərindən imtinasının gerçək səbəbi: "Qulaqburması..."

## İşğalçı ölkə Gürcüstandakı hərbi təlimlərə qatılmaqdan son anda imtina etməklə hətta çoxlarını şoka saldı; **politoloq:** "Əks halda, Moskva Sərkisyanı cəzalandıra bilərdi"

**Ermənistan son anda NATO-nun Gürcüstanda keçirdiyi "Agile Spirit 2017" ("Çevik ruh 2017") hərbi təlim məşqlərində iştirak etməkdən imtina edib, Bu barədə Gürcüstan Müdafiə Nazirliyinin ictimaiyyətlə əlaqələr üzrə səlahiyyətli nümayəndəsi Giorgi Kaçaravaya istinadən Ermənistan mediası xəbər verib.**

Ermənistan Müdafiə Nazirliyi qabaqcadan razılıq verdiyi NATO hərbi təlimində iştirak etməmək qərarını şərh etməkdən də imtina edib. Lakin sonradan erməni tərəf iddia edib ki, onlar NATO təlimlərində iştirak qərarı verməyiblərmiş. Ancaq medianın da yazdığı kimi, görünür, Ermənistanın bu qərarı son anda qəbul olunub və gözlənilməz olub ki, Ermənistan bayrağı hərbi təlimin rəsmi nişanı üzərindən götürülməyib. Bu barədə BBC Azərbaycancanın İrəvan müxbiri Alexey Manvelyan bildirib. Ermənistan bayrağı ilə yanaşı "Agile Spirit 2017" nişanı üzərində təlimdə iştirak edən Gürcüstan, ABŞ, Rumıniya, Ukrayna, Latviya və Azərbaycanın bayraqları da təsvir olunub. Yalnız son anda Ermənistan bayrağı yığışdırılıb. Erməni tərəfin iddialarından biri budur ki, onlar adətən, Türkiyə və Azərbaycanın iştirak etmədiyi tədbirlərə qatılırlar. "Ermənistan Müdafiə Nazirliyi Gürcüstanda keçiriləcək "Agile Spirit 2017" hərbi təlimlərində iştirak edəcəyini bəyan etmişdi. Lakin, təəssüf ki, qonşumuz son anda iştirakdan imtina etdi". Bunu isə cənab Kaçarava deyib və ermənilərin iddialarını faş edib. O, Ermənistandan təlimlərdə cəmi 3 hərbi həkimin iştirak edəcəyinin nəzərdə tutulduğunu deyib və onların iştirak etməməsinin təlimlərə heç bir təsiri olmayacağını qeyd edib.

NATO-nun Gürcüstanda keçirilən hərbi təlimlərindən son anda imtina edərək hətta yerli ekspertləri şoka salan Ermənistan hakimiyyəti qəfildən Rusiya ilə birgə təlimlərə qatılmaq qərarı verməklə faktiki olaraq öz-özünü ifşa edib. Belə ki, sentyabrın 4-də Ermənistan ordusunun hava hücumundan müdafiə idarəsinin rəisinin rəhbərliyi ilə işçi qrupu Rusiyaya səfər edib. Onlar Rusiyada MDB ölkələrinin hava hücumundan müdafiə məsələlərinə, həmçinin birgə döyüş atışlarında iştiraka həsr olunan tədbirlərə qatılacaqlar. Ermənistan Müdafiə Nazirliyindən bildirilib ki, nümayəndə heyəti 7 sentyabrda Ermənistan silahlı qüvvələrin baş qərargah rəisi Movses Akopyanın rəhbərliyi ilə döyüş atışlarının final mərhələsində iştirak edəcək. Ermənistan müdafiə nazirinin müavini Artax Zakaryan son açıqlamasında bildirib ki, Ermənistan üçün təhlükəsizlik önəmlidir və ölkə təhlükəsizliyinin qarantı kimi KTMT-ni görür.

Bundan əvvəl Ermənistan 2009-cu ildə son anda NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində keçirilən təlimlərdə iştirak etməkdən imtina etmişdi.

Müşahidəçilərin fikrincə, erməni tərəfinin son anda təlimlərdə iştirak etməmək qərarları Moskvanın təzyiqlərinin nəticəsi kimi anlanıla bilər.

"Ermənistan hərbi təlimdə iştirak etməyəcəyini qabaqcadan bəyan etsəydi, bütün tərəflər bu qərara normal yanaşardı. Bu halda isə, müxtəlif fikirlər yaranır. Bu, Rusiya tərəfindən təzyiq kimi yozula bilər", - Lester Universiteti kəşfiyyat, təhlükəsizlik və strateji tədqiqatlar departamentinin elmi işçisi Eduard Abramyan deyib. Eyni zamanda, təhlilçi hesab edir ki, erməni tərəfinin NATO tədbirlərində "həddən böyük fəallığı Rusiya ilə gərginliyə səbəb ola bilər, çünki, onun sözlərinə görə, Moskva özünü NATO və blokun yaxın müttəfiqləri (Ukrayna və Gürcüstanla) ilə qarşıya qoyur və hətta sırf sülhməramlı və müdafiə xarakterli tədbirlər belə Moskva tərəfindən öz regional maraqlarına təhlükə kimi qəbul olunur.

"Agile Spirit 2017" hərbi təlimləri sentyabrın 3-də saat 12:00-da Gürcüstanın Axalsixe bölgəsində yerləşən poliqonda başlayıb və sentyabrın 11-dək davam edəcək.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın Gürcüstanda start götürən çoxmillətli "Agile Spirit 2017" çoxmillətli hərbi təlimlərdə iştirakdan imtinanın arxasında açıq-aşkar Rusiyanın tələbi dayanır: "Ermənistan silahlı qüvvələrinin nümayəndələri tədbirin açılış mərasiminə qatılmadılar. Halbuki Ermənistan bu təlimlərdə iştirakını əvvəlcədən təsdiq etmişdi. Deməli qatılmamaq qərarı İrəvanda verilməyib. Onu buna məcbur ediblər. Maraqlıdır ki, NATO-nun hərbi təlimlərə qatılmamaq qərarını Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ohanesyan əvvəlcə şərh verməkdən imtina edib. Ancaq bir neçə gün sonra qatılmamaq qərarının böyük rezonans doğurduğunu anlayan rəsmi İrəvan nə isə demək məcburiyyətində qalıb və Ermənistanın müdafiə naziri Artaj Zakaryanın dili ilə bəyan ediblər ki, guya planlarının dəyişməsində heç bir siyasi səbəb yoxdur. Sual olunur: siyasi səbəb yoxdursa, hərbi təlimlərdən niyə imtina etmisiniz? Axı, NATO-nun Gürcüstandakı hərbi təlimlərdə iştirakınıza dair əvvəlcədən razılığınız olub. Məsələ aydındır. Moskva İrəvana qulaqburması verib".

E.Şahinoğlu xatırlatdı ki, hadisələrin məhz bu istiqamətdə inkişaf edəcəyini aylar öncə proqnozlaşdırmışdı: "Məndən məsələyə münasibət öyrənən jurnalistlərə hər zaman eyni cavabı söylədim: Ermənistanın NATO-nun Gürcüstandakı hərbi təlimlərində iştirakından böyük nəticələr çıxarmaq lazım deyil. İrəvan bu təlimlərdə iştiraka görə Moskvadan icazə alıb. Ermənistan tamamən Rusiyadan asılı olduğundan bu ölkənin maraqlarına zidd addım atmayacaq. İndi bu sözlərimin təsdiqi kimi Ermənistan hakimiyyəti son anda NATO-nun Gürcüstandakı növbəti hərbi təlimlərində iştirakdan imtina edib və bunun səbəbini izah etməyib. Səbəbi aydındır. Moskva bu dəfə İrəvana qadağan edib".

Politoloq burada Soçi görüşünün təsirini də istisna etmədi: "Ermənistan prezidenti bir müddət əvvəl Rusiya prezidenti Vladimir Putinin hüzuruna çağırılmışdı. Serj Sərkisyan bir neçə gün öncə verdiyi açıqlama dedi ki, Soçidə Putinlə Qarabağdan danışmayıblar, elə-belə qısa fikir mübadiləsi olub. Qarabağdan danışmayıblarsa, bəs, onda nədən danışıblar? Böyük ehtimalla Putin Sərkisyana NATO təlimlərində iştirakdan imtinaya çağırıb, əks halda, bunun Ermənistan üçün hansı ağır nəticələr olacağını diplomatik dildə anladıb. Sərkisyan da biabırçı şəkildə NATO təlimlərindən imtina qərarını verib. Sərkisyanın başqa çıxış yolu olmayıb. Əks halda, Moskva Sərkisyanı cəzalandıra bilərdi".

Politoloq qeyd etdi ki, Ermənistanda gələn il prezidentin funksiyaları baş nazirə keçməlidir və Sərkisyan prezident kreslosunu baş nazir kreslosuna dəyişmək istəyir: "Sərkisyan özünü yaxşı aparmasa, Moskva Sərkisyana yox elə indiki baş nazir Karen Karapetyana üstünlük verə bilər. Onsuz da Karapetyan Ermənistana elə Moskvadan göndərilib. Bu baş verməsin deyə Serj Sərkisyan NATO-nun təlimlərinin yerinə ənənəvi olaraq Rusiya ilə birgə hərbi təlimlərə qatılacağını açıqlayıb".

E.Şahinoğlu qeyd etdi ki, NATO-nun Gürcüstandakı hərbi təlimlərində bir sıra dövlətlərlə yanaşı Azərbaycan da iştirak qərarı verib: "Rəsmi Bakı doğru addım atıb. Ermənistandan fərqli olaraq biz kimsənin diktəsinə baş əyməməliyik, maraqlarımıza uyğun hərəkət etməliyik, doğru olan da budur. Azərbaycan öz ordusunu NATO standartlarına uyğun inkişaf etdirməlidir. Elə Türkiyə ilə hərbi ittifaqın gücləndirilməsi də bundan xəbər verir. Türkiyə NATO-nun ən fəal üzvüdür. Ona görə də biz NATO təlimlərində fəal iştirak etməliyik".

**Göründüyü kimi, Ermənistan müəyyən manevrlər etdikdən sonra yenidən öz ağasının yanına döndü. Ancaq maraqlıdır, Qərb növbəti dəfə Ermənistanın riyakar siyasətinin üstündən keçib onunla əməkdaşlığa maraq göstərəcəkmi?**

❑ **E.PAŞASOY**

# "Neftin qiyməti ilə bağlı təşvişə ehtiyac yoxdur" - ekspert




## İlham Şaban dünya bazarında neftin kəskin ucuzlaşmasını şərh etdi

**Son günlər dünya bazarında neftin qiymətində müşahidə olunan ucuzlaşma iqtisadiyyatı neftdən asılı olan bir ölkə kimi Azərbaycanı da narahat edir.**

Belə ki, son məlumatlara görə, ICE London qitələrarası birjasında "Brent" markalı neftin 1 barelinin dəyəri isə 0,19 dollar və ya 0,36% azalaraq 52,15 dollar olub. Sentyabrın -də günorta saatlarında isə bir qədər bahalaşaraq, 52,52 dollar olub.

Bunun əksinə olaraq, Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,10 dollar və ya 0,21% artaraq 47,39 dollar təşkil edib.

Bəs görəsən, dünya bazarında neftin kəskin ucuzlaşması hazırki durum üçün aktualdırmı? Belə olan halda Azərbaycan iqtisadiyyatını nə gözləyir?

"Yeni Müsavat"ın bu suallarını cavablandıran **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, hələ ki, həyəcan təbili çalmaq üçün əsas yoxdur: "Hər hansı təşvişə ehtiyac yoxdur. Son bir ayın göstəricilərinə baxsaq görərik ki, son olaraq avqustun 15-də neftin qiyməti 50 dollardan aşağı düşüb. Ondan sonra isə qiymətlər 50 dollardan yuxarı olub, 52,80 dollara kimi qalxıb. Avqustun 25-dən etibarən neftin qiyməti 51,50 dollardan yuxarı olub".

İlham Şaban neftin qiymətinin 50 dollardan yuxarı olmasının və iyul ayının göstəricilərinə nisbətən bahalaşmasının səbəblərini belə izah etdi: "OPEK ölkələri və qeyri-OPEK ölkələri bir neçə toplantı keçirdilər, çox optimist çağırışlar səsləndirdilər. Bu çağırışlardan ən əsası o idi ki, dünyanın iki neft nəhəngi olan Səudiyyə Ərəbistanı və Rusiya neft hasilatının azaldılmasında və neftin qiymətinin yuxarı olmasından maraqlıdırlar. Bir qədər keçəndən sonra qeyd etdilər ki, 2016-cı ilin dekabrında əldə edilən razılaşmanı 2018-ci ilin martından etibarən daha 3 ay uzatmaq qərarına gəliblər. Başqa bir tərəfdən isə avqust ayının ikinci yarısından başlayaraq Koreya yarımadası ətrafında siyasi gərginlik yüksələn xətlə inkişaf etməyə başladı. Sentyabr ayının ilk 5 günü artıq arxada qalsa da, həmin siyasi gərginlik səngimək bilmir və yeni həlqələr cızılır, bu münaqişənin ucu-bucağı görünmür. Bu gərginliyə cəlb olunmuş Cənubi Koreya, Yaponiya da və bu konfliktdə marağı olan, o cümlədən gücünü nümayiş etdirən ABŞ regiondakı hərbi eskalasiyanı gücləndirir. Çin kimi neft idxalına görə dünyada ABŞ-ı belə qabaqlamış nəhəng bir ölkənin, o cümlədən Cənubi Koreya və Yaponiyanın enerjidən asılı olması, həmçinin gərginliyinin soyuq mərhələdən hərbi müdaxiləyə keçməsi ehtimalının artması, regionda hərbi qüvvələrin getdikcə artması ilk növbədə enerjiyə tələbatı artırır. İkincisi də bütün bu ölkələrin idxalçı ölkə olması və hər hansı gərginlik zamanı tankerlərin hərəkətində müəyyən problemin olması bazar üçün ciddi siqnaldır. Bu kimi vəziyyət bazarda neftin qiymətinin ucuzlaşmasının qarşısını alır".

**İqtisadçının sözlərinə görə, bütün bu səbəblərin fonunda OPEK ölkələrində hasilatın artmasını belə arxan plana atır:** "Halbuki iyun və iyul ayının hesabatlarında da OPEK ölkələrinin hasilatı artırdığı ilə bağlı məlumatlar var. Bu isə o deməkdir ki, neftin qiyməti düşməli idi. Deməli, hazırda neftin bahalaşması və 50 dollardan yuxarıda olması heç də tələb və təklif məsələsi deyil. Bu kimi faktların təsirinə "bazarın qızdırılması" deyilir. Bazarın qızdırılması ona gətirib çıxartdı ki, hələ də neftin qiymətinin 50 dollardan yuxarı olduğu dövrü yaşayırıq. İlin birinci yarısını da neft dünya bazarında neftin 52 dollarla başa vurmuşdu. Bu hələ ki, iqtisadiyyatı neftdən asılı olan ölkələr üçün yaxşı göstəricidir".

**Onu da qeyd edək ki, bu ilin dövlət büdcəsində neftin 1 barelinin orta illik qiyməti 40 dollardan hesablanıb. Bu isə o deməkdir ki, Azərbaycan üçün neftin qiymətinin 50-52 dollar civarında davam etməsi sərfəlidir.**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017

# "Oğurluğu və rüşvəti bacarmıram..."

## Bəhram Bağırzadə: "Reklam çarxları olmasa başqa işlərimi görə bilmərəm"

**Sentyabrın 4-də əməkdar artist, şoumen, aktyor Bəhram Bağırzadə 45 yaşını qeyd etdi. Bu münasibətlə "Yeni Müsavat"ın əməkdaşı əməkdar artistlə söhbətləşib, təəssüratlarını öyrənməyə çalışıb. Bəhram Bağırzadə artıq 9 ildir ki, özünə doğum günü keçirmədiyini deyib:**

- Sadəcə olaraq səhər tezdən gül dəstəsi ilə anamın yanına gedib təbrik edir, əllərindən, gözlərindən öpür, ona minnətdarlığımı bildirirəm və Allahdan ona uzun ömür arzulayıram. Sonra isə axşamüstü ailəmlə birgə çay süfrəsi arxasında oturub, söhbətləşirik. Bu ad günümə isə Azərbaycanın futbol komandası öz uğurunu mənə hədiyyə etdi. Bildiyiniz kimi, millimiz San-Marino komandasına 5-1 hesabı ilə qalib gəldi.

***- Futboldan söz düşmüşkən, bundan əvvəl futbol haqqında sual verəndə "olmayan şey haqqında necə danışmaq olar?" deyə cavab verirdiz. Bəs bu gün artıq futboldan danışmaq olarmı?***

- Elə indi də futbol yoxdur. Sadəcə işləmək lazımdır. Futbol aləmi yoxdur, var şəxsiyyətlər. Bunlar Banışevski, Cavadov, Nazim Süleymanov və hazırda Qurban Qurbanovdur. Onların ətrafında da futbol qurulub. Amma sistemə gəldikdə, təbii ki, futbol yoxdur. Lakin onu da düzəltmək olar. Məsələn, keçmişdə bizdə bəzi idman növlərində nəticələr yox idi. İndi isə boks, qadın voleybolu idman növlərində nəticələr var. Futbol sistemini qurmaq isə çox çətindir, çünki buna görə xeyli vəsait lazımdır. Həm də ki, ən azı 12 komanda olmalıdır.

***- Millimizin bundan sonrakı uğurlarına inanırsızmı?***

- Mən həmişə iman və inamla yaşamışam. İman və inamın olmasaydı KVN-də heç vaxt çempion olmazdım, digər uğurları əldə edə bilməzdim. İnam və arzular öləndə, insan da artıq ölür. Buna görə də arzularla yaşamaq lazımdır. Arzularla bərabər insan həm də öz üzərində işləməlidir.

***- Zamanında KVN "Əsrin çempionu" olduz. Lakin sizlərdən sonra sanki yeni nəsil KVN yarışmalarına maraq göstərmir, iştirak etmək istəmirlər.***

- Bu sualı artıq gənclərə vermək lazımdır ki, niyə onların buna marağı yoxdur. İndi artıq Rəşid Behbudov, Üzeyir Hacıbəyov, Qara Qarayev də yoxdur.

***- Bəs "Planet Parni iz Baku" KVN teatrının yeni tamaşalarını, sizin orda iştirakınızı görə biləcəyik?***

- Bu haqda heç nə bilmirəm, onu ancaq Allah bilir. Mən hazırda başımı aşağı salıb öz işlərimi görürəm, çalışıram. Allah qoysa qışda tamaşa olar, olmaz da yenə də Allaha təvəkkül.

***- Son zamanlarda sizi ancaq reklam çarxlarında görürük. Bəs film və ya seriallara dəvətlər alırsızmı?***

- Bəli, dəvətlər alıram, iştirak edirəm, yəni fəaliyyətdəyəm. Sadəcə reklamları hər gün göstərirlər. Bu yaxınlarda bir neçə Rusiya filmində çəkilmişəm və Azərbaycanı o filmlərdə təmsil edəcəm. Həmçinin Avstriyada, Vyanada mənim sərgilərim oldu. Daha bir yeni sərgimin açılışına hazırlaşıram. Yəni bir sözlə, fəaliyyətdəyəm.

Reklam çarxları isə - qeyd etdiyim kimi - hər zaman üzdə olduğu üçün tamaşaçılar məni orada çox görür. Lakin reklam çarxları olmasa başqa işlərimi görə bilmərəm. Mən oğurluğu, dağıtmağı, mənimsəməyi, rüşvəti bacarmıram, ona görə də reklamlara çəkilirəm. Evə də ən azı çörək pulumu aparıram. Kiminsə bu xoşuna gəlmirsə, öz problemidir.

***- "Karikaturaçı Rəssamlar Birliyi"nin üzvüsüz. Maraqlıdır, sonuncu karikaturanız nə haqqında olub?***

- Hazırda mən dostluq şarjı çəkirəm. Çox məşhur, tanınmış, Avropa standartlarına uyğun olan futbol məşqçisinə, hansı ki, bizi Çempionlar Liqasına apardı, ona aid karikatura hazırlayıram. Adını amma deməyəcəm (gülür).

***- Ümumiyyətlə, Azərbaycanda hansı karikaturaçının əsərlərini bəyənirsiz?***

- Hazırda "Karikaturaçı Rəssamlar Birliyi"nin 70 üzvü var. Onların hamısının fəaliyyətini bəyənirəm. Hər halda əgər insan yaradırsa, yaradıcıdırsa, ondan xoşum gəlir, dəstəkləyirəm.

***- Ötən gün artıq 45 yaşınıza qədəm qoyduz. Bu yaş sizin arzularınızda bir dəyişiklik etdimi?***

- Mənim ən böyük arzum Allaha təvəkkül etmək və yaşamaqdır. Allah millətimizi qorusun!

❑ Xalidə GƏRAY



# Yayın cırhacırında kostyum-qalstuklu məmurlar...

## Onlar etiket qaydalarına riayət edirlər, ya şablondan uzaqlaşa bilmirlər?

**Belə mənzərələrlə dəfələrlə qarşılaşmışıq. Yaydır, havanın temperaturu 40 dərəcə istini göstərir, amma məmurlar, dövlət idarələrində və ya özəl sektorda çalışan şəxslər kostyum-şalvarda, qalstukda... əzab çəkirlər. Bizə görə, bu, belədir. Yəni onların istidə özlərinə zülm verdiklərini düşünürük. Çünki o cür havada hamımız daha sərin, daha açıq, istidən daha çox qoruyan qiyafələr geyinməyə üstünlük veririk. Bizim əksimizə olaraq, onlar daşıdıqları statusun ağırlığını həm də geyim seçimində göstərirlər. Daha ciddi, daha rəsmi və daha qapalı...**



Bunun izahatı bir çox hallarda "dress-kod" termini ilə assosiasiya olunur. Ümumiyyətlə isə "dress-kod" termini Böyük Britaniyada yaranıb və qısa müddətdə bütün dünyaya yayılıb. Müasir dress-kod qayda və standartların bütövlüyü, işgüzar insanın qəbul edilmiş normalarıdır. Geyim seçimində əsas qayda onu vaxta və şəraitə görə seçməkdir. Axı müasir dünyada nəinki geyimə görə qarşılayırlar, həm də yola salırlar. Ona görə də hadisənin, mərasimin mövzusuna uyğun geyinməlisiniz.

"White Tie" ifadəsi tərcümədə ağ qalstuk deməkdir. Balda, banketdə, diplomatik qəbullarda, cıdırda və toyda ciddi, rəsmi variant hesab edilir. Kişilər: kişilər üçün bu, qara frak, qara şalvar deməkdir. Ağ köynəyi ağ kəpənək qalstuk tamamlamalıdır. Ayaqqabı və corab yalnız qara rəngdə olmalıdır. Qadınlar: məhz belə gecəyə ipəkdən, məxmərdən və ya taftadan paltar geyinmək olar və lazımdır. Açıq dekolte sinə şalla örtülür, bəzək əşyaları ancaq bahalı metallardan olmalıdır, dirsəyə qədər əlcək taxılmalı və kiçik ölçülü çanta götürülməlidir. Saçlar səliqəli şəkildə hündür toplanmalıdır.

"Black Tie", "Cravate Noire", "Tuxedo" - dress-kodu ciddi gecə tədbiri, məsələn, teatr üçün nəzərdə tutulur. Kişilər: cüt və ya tək düyməli smokinq geyilir. Köynək isə ağ rəngdə olmalıdır. Kəpənək qalstuk qara rəngdə. Kişilər üçün vacib atribut enli qurşaq, yəni belbağı hesab edilir. Ayaqqabı da qara rəngdə olmalıdır. Döş cibində yaylıq və butonyör (yaxaya taxılan qönçəli sancaq) ola bilər. Qadınlar: donun uzunluğu dizdən yuxarı da ola bilər, döşəməyə qədər çata da bilər. Dəri və ya parçadan incə kəmərli saat və yaxud bahalı daş-qaşlı qolbaq, bilərzik taxmaq olar.

"Black Tie" ifadəsi ilə yanaşı "Invited" sözü yazıla bilər. Bundan başqa dəvətnamədən "Optional", "Creative" sözləri yazıla bilər. Bu, o deməkdir ki, qaydalara riayət etmək vacib deyil, obrazınıza yaradıcı yanaşa bilərsiniz. Qadınlar kişmir sviterlə uzun ipək yubka geyinə, kişilər isə standart olmayan rənglərdən istifadə edə bilərlər.

"Cocktail Attire" ailə şənlikləri, kokteyl və digər mərasimlər üçün münasibdir. Kişilər: qara kostyumsuz və qalstuksuz. Qadınlar: zərif və məlahətli görünməlidirlər. Bu "dress-kod" həm ofis, həm gecə üçün yararlıdır. Ona görə ki, həm kostyum, həm də kokteyl üçün donlar geyinmək olar. Özünüzlə kiçik ölçülü çantalar götürə, bijuteriya taxa bilərsiniz.

"Black Tie" anlayışına çox yaxındır. Lakin bəzən geyimə yaradıcı yanaşmaq, dəbli detallardan istifadə etmək olar.

"Semi Formal" - yarı-rəsmi "dress-kod". Kişilər: mərasimdən asılı olaraq pencəyin altından nazik cemper geyinə bilərsiniz. Qadınlar: saat 8-ə kimi şalvarlı kostyumlar və ya dəbdəbəli gündəlik don geyinə bilərsiniz. 8-dən sonra kokteyl üçün donlar, tutalım qara qısa don.

"Casual" kişilər: bu "dress-kod" ən demokratikdir. Vəziyyətdən asılı olaraq işgüzar kostyumu köynək, sviter və ya jaketlə geyinə bilərsiniz. Cins, pencək, pambıqdan və ya trikotajdan futbolka geyinə bilərsiniz. Təbii ki, işgüzar xarakterli tədbirə daha ciddi variant seçsəniz yaxşı olar. Qeyri-rəsmi görüşlərə isə keyfiyyətli cins də geyinmək olar. Qadınlar: demək olar ki, hər şey geyinə bilər - gündəlik və ya ofis stilində donlar, həmçinin cins, yubka və s. Aksesuarları düzgün seçməklə obrazınızı tamamlaya bilərsiniz. Əsas odur ki, bayağı deyil, dəbli görünəsiniz.

"A5" ("After five") Bu "dress-kod" saat 5-dən sonra restoran və ya kafedəki çağırılmış dəvətlər, mərasimlər üçün münasibdir. Kişilər: işgüzar kostyumla rəngli, parlaq köynək geyinə bilərlər. Qadınlar: mütləq gözəl, bayramsayağı, gündəlik geyimdən fərqli geyinməlidirlər.

Amma bu məsələdə diqqəti çəkən bir başqa detal da son illər populyarlıq qazanan kejual tərzidir. Onun üzərində xüsusi dayanmaq zəruridir. Kejual dəb termini olub, ingilis dilindən gündəlik, lakin eleqant geyim mənasını verir. Kejual stilinin əsas xüsusiyyətləri rahat və istənilən məkana uyğunluq təşkil etməsidir. O, özündə idman və klassik elementləri birləşdirir. Kejual üslubu müxtəlif brendlərin və tərzlərin "təsadüfi" birləşmələri ilə səciyyələnir. Bu zaman əsasən cins, pambıq, kətan, yun, dəri, parçadan olan geyimlərdən istifadə olunur. Bu tərz təbii materiallardan olan bəzək əşyaları ilə tamamlanır.

Sadəlik və rahatlığına görə, kejual üslubunun özünün də bir neçə növləri var. Məsələn, street (küçə), smart və ya casual tərzi. Onlar da öz növbələrində bir-birindən xeyli fərqlənirlər.

Birincisi, dostlarla şəhər gəzintisi üçün nəzərdə tutulub. Burada geyimlər maksimum rahat olmalı, lakin bir o qədər də eleqant görünməlidir.

İkincisi isə çox ciddi olmayan iş mühitləri və ya işgüzar görüşlər üçündür. Şalvar, köynək, jaket, ətək, kokteyl donları parlaq aksessuarlar və rahat ayaqqabılarla birləşdirdikdə müasir işgüzar tərz yaranmış olur. Əgər iş yerində ciddi dress-kod qaydaları yoxdursa, onda kejual üslub lap yerinə düşür. Bu tərzi dəb mütəxəssisləri də alqışlayır. Məsələn, pencəklə, düyməli köynək obraza ciddilik verir, cins şalvar isə bu ciddiliyi yumşaldır. Ona görə də əminliklə demək olar ki, smart kejual müasir kişi və müasir qadın qarderobunun əsasını təşkil edir.

Smart kejual klassik üslubdan bununla fərqlənir ki, burada ciddi kostyum, qalstuk, köynəklər və ya dikdaban ayaqqabı geyinmək məcburi deyil.

**Yəni bu məsələdə də olduqca incə nüanslar var və onlara riayət etmək lazımdır. İnsanlar daşıdıqları vəzifəni sözün bütün mənalarında doğrultmalıdılar. Düşünün ki, hansısa nazirlikdə, dövlət idarəsində məsul bir vəzifə tutan şəxs cins şalvarda, dar köynəkdə və idman ayaqqabısında işə gəlir, iclas keçirir. Bu, onun işinə qeyri-ciddi yanaşmasının göstəricisi sayılacaq və sözünün dəyərinə birbaşa təsir edəcək. Üstəgəl, bu mənzərə təkcə bizdə deyil. Avropa, Amerika və ümumiyyətlə, inkişaf etmiş ölkələrdə də bizneslə məşğul olan, ciddi iş adamları bu imicdən əsla vaz keçmirlər.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 183 (6797) 6 sentyabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Lavrovdan Qarabağ etirafı - sülhü ləngidən tək səbəb bilindi

Postsovet məkanındakı münaqişələrin yeganə memarının Rusiya olduğu rəsmən təsdiqləndi; konfliktlərin həllində Moskvanın ədalətli münsif olması mümkünmü? **Politoloq:** "Azərbaycan yeni taktikaya keçməlidir..."

**Ötən həftə sonu Rusiyanın xarici işlər naziri maraqlı bir açıqlama verdi. Bu açıqlamanın Azərbaycandan ötrü önəmi ondan ibarətdir ki, Rusiya xarici siyasət idarəsinin başçısı bizim əsas problemimiz olan Dağlıq Qarabağla bağlı ilk dəfə, bəlkə heç özü də bilmədən Rusiya adına bir etirafda bulundu.**




Həmin açıqlamanı bir daha yada salmaq zərurəti var. Nazir deyib: "Rusiya məsuliyyətli dövlətdir və son 20 ildə ATƏT çərçivəsində, eləcə də Rusiya-NATO Şurasında qəbul olunmuş bəyannamələrə sadiqdir. Həmin bəyannamələrdə tərəflərin Avroatlantika və Avrasiyada bərabər təhlükəsizlik məkanı formalaşdırmaq arzusu, eləcə də heç bir tərəfin öz təhlükəsizliyini digərinin təhlükəsizliyinə zərər gətirəcək şəkildə möhkəmləndirməyəcəyi vədi əksini tapıb. Təəssüf ki, bu bəyannamələr kağız üzərində qalıb. Bizim həmin sənədləri hüquqi öhdəlik şəklinə salmaq cəhdlərimiz Qərbdən olan həmkarlarımız tərəfindən rədd edilib. Mən əminəm ki, əgər bərabər və bölünməz təhlükəsizlik prinsipi doğrudan da hüquqi baxımdan məcburi formaya salınsaydı, hazırda Avropada olan bir çox münaqişələr çoxdan həllini tapardı".

Ən maraqlısı da elə odur ki, Rusiya XİN-in rəhbəri həmin münaqişələr sırasında Dağlıq Qarabağ konfliktini də qeyd edib. Yəni belə bir qənaət hasil olur ki, Moskva postsovet məkanında Qarabağ ixtilafı kimi münaqişə ocaqlarını müstəsna olaraq öz maraqlarını təmin eləmək, həmsərhəd postsovet ölkələrinin Qərbə, NATO-ya inteqrasiyasını önləmək üçün yaradıb.

Bu - kifayət qədər açıq, ciddi bir etirafdır və daha bir neçə mühüm qənaəti doğurur: 1. Artıq şəkk-şübhə qalmır ki, Qarabağ daxil, postsovet ərazisində münaqişələrin memarı məhz Rusiyadır; 2. Nəzərə alsaq ki, Rusiya-NATO, Rusiya-ABŞ münasibətləri yaxşılaşmaqdan çox uzaqdır, əksinə, daha da gərginləşməyə doğru gedir, demək, Moskva üçün bu konfliktlərin önəmi artıb və Kreml onların həllinə imkan verməyəcək; 3. Bu, həm də onun açıq etirafıdır ki, Rusiya bu münaqişələrin həllində ədalətli vasitəçi ola bilməz, ümumiyyətlə, vasitəçi ola bilməz. Çünki Rusiyanın özü bütün bu konfliktlərdə tərəfdir: ya işğal ortağıdır (Ermənistanla), ya da işğalçının özüdür (Abxaziya, Cənubi Osetiya, Krım).

*****

Lavrovun bu açıqlamasından sonra əslində Rusiya ATƏT-in Minsk Qrupu həmsədrliyindən getməlidir. Aydındır ki, bu statusla o, ədalətli münsif ola bilməz. Fəqət, nə edəsən ki, Azərbaycan bir növ Rusiyaya şans vermək naminə və onun təhlükəli bir qonşu olması reallığını ciddiyə alıb da belə bir absurda dözmək zorundadır.

Dəfələrlə yazdığımız kimi, təbii ki, Rusiya Dağlıq Qarabağ konfliktini Azərbaycanın, hətta Ermənistanın maraqları çərçivəsində həll eləmək niyyətində deyil. Nədən ki, ona problemin həlli yox, özü lazımdır. Səbəblərə yuxarıda toxunuldu. Bu mənada Bakı Qarabağ ixtilafının həlli üçün belə görünür ki, Rusiya-Qərb qarşıdurmasının nə ilə sonuclanacağını da gözləmək zorundadır.

Qərb, ələlxüsus ABŞ isə Rusiyanı yerində oturtmaq üçün bütün qeyri-hərbi rıçaqlarını artıq işə salıb. Bu rıçaqların önündə iqtisadi-maliyyə sanksiyaları gəlir. Əksər analitiklərə görə, zamanla bu sanksiyalar Rusiyanın iqtisadi-maliyyə göstəricilərini ciddi şəkildə pisləşdirəcək. Bu da böyük ehtimalla, Kremlin Dağlıq Qarabağ probleminin həllinə ənənəvi destruktiv müdaxiləsini, yaxud konfliktin həllini süni surətdə uzatmaq imkanlarını zəiflədəcək. O sırada Azərbaycan nəhayət ki, Rusiya amilinə bir elə fikir vermədən güc yolu ilə öz torpaqlarını erməni işğalçılardan təmizləyə bilər.

*****

"ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların qüvvəyə minməsi Moskvaya ciddi problemlər yaradacaq". Bu barədə Axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli danışıb. Politoloq hesab edir ki, Rusiyanın zəifləməsi Moskvanın Cənubi Qafqazdakı rolunu azaldacaq.

"Buna görə də Rusiyanın zəifləməsini və bölgədə təsirinin azalmasını gözləməliyik. Amerikalı həmsədr Riçard Hoqlandın bəyanatı fonunda Vaşinqtonun Bakıya verdiyi siyasi mesajlar Qarabağ məsələsinə yanaşma tərzinin ciddi surətdə dəyişdiyini göstərir. ABŞ Azərbaycanın ərazi bütövlüyünü ön plana çəkir. Bu baxımdan biz dünyada və beynəlxalq ictimai rəydə olan dəyişiklikləri ciddi izləməliyik. Yəni postsovet məkanındakı bütün münaqişələrə yanaşma tərzinin Dağlıq Qarabağ probleminə də tətbiq olunmasına nail olmalıyıq. Bu Bakının atacağı ilk addım olmalıdır. Hesab edirəm ki, bundan sonra Azərbaycan yeni taktikaya keçməli, ölkədə psixoloji vəziyyətin müharibə istiqamətində köklənməsi və ordunun daha da güclənməsi istiqamətində fəaliyyətini davam etdirməlidir. Çünki güclü diplomatiyanın arxasında güclü ordu dayanır. Zənnimcə, hazırda dünyada gedən bir sıra siyasi dəyişikliklər Azərbaycanın xeyrinə inkişaf etdiyindən, bunları düzgün dəyərləndirməli və ona uyğun taktikanı seçməliyik", - deyə politoloq qeyd edib.

Q.Hüseynli yaxın zamanlarda Bakıdan ciddi diplomatik və hərbi manevrlərin gözlənildiyini də bildirib:

"Çünki Azərbaycan regionda gedən dəyişiklikləri nəzərə alır. Bu fonda Türkiyədən başqa yeni müttəfiqlərin axtarılması ön planda durur. Türk dünyasının Azərbaycana qarşı pozitiv meyli artır. Qərb, xüsusilə də Atlantika məkanı Azərbaycana əvvəlkindən daha obyektiv yanaşır. Bu fonda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində səsləndirilən rəylərin real həqiqətlərə uyğun olması üçün xarici diplomatiyamız səylərini gücləndirməlidir".

*****

**Əslində də Qarabağ məsələsində diplomatiyamızın üzərinə ordumuzdan daha böyük məsuliyyət düşür. Ən azı ona görə ki, uğurlu hərbi əməliyyatlar və onların müsbət sonuclarını dünyaya qəbil etdirmək üçün məqbul regional və beynəlxalq şərtlər lazımdır. Bu isə əlbəttə ki, diplomatlarımızın, Xarici İşlər Nazirliyinin görəvidir. Silahlı Qüvvələrimizin və diplomatiyamızın gücünü paralel (sinxron) şəkildə artırmalıyıq.**



# Sentyabrın 1-dək orduya Yardım Fonduna yığılan vəsaitin məbləği açıqlanıb

**Azərbaycan Silahlı Qüvvələrə Yardım Fonduna sentyabrın 1-dək 84.650.521,36 AZN, 212.873,88 ABŞ dolları, 8336,0 avro və 5000,0 rubl vəsait daxil olub. Bu barədə Musavat.com-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 saylı fərmanı ilə yaradılıb.

Fond Azərbaycan Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycanın etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.



# "Heç nə daxil" xidmətə görə lüks otel tarifi

Xalid KAZIMLI

**Yay məzuniyyətimin bir həftəsini Gürcüstanda (Kobuleti), iki gününü də ölkə daxilində keçirdim. Kobuletidə müşahidə etdiyim mənzərəni geniş yazmışam, yenidən təfərrüata varmağa ehtiyac yoxdur.**

Yalnız onu demək olar ki, gürcülər (acarlar) turizmdə haqqın yolunu tapıblar, elə ediblər ki, seks turizmi olmadan belə on minlərlə turisti Qara dəniz sahillərinə, ölkənin paytaxtına, sərin vadilərinə cəlb edə bilirlər.

Bunun yeganə bir sirri var - tətilin insanlara ucuz başa gəlməsini təmin etmək. Hər yerdə olduğu kimi, burada da ucuzluq cəlbedicidir, kütləvilik yaradır.

İstirahətə gələnlərə diqqət edəndə görürsən ki, onların heç də hamısı imkanlı, var-dövləti başından aşan insanlar deyil. Varlılar Antalyanın, Bodrumun, Maldivin, İbizanın, Malyorkanın, Santorininin beşulduzlu otellərini qoyub, Kobuletiyə, Batuma gəlməzlər ki.

Qara dəniz sahillərindəki istirahət məkanlarına gələnlər dolanışıq baxımından orta, hətta ortadan da aşağı səviyyədə yaşayan adamlardır. Onlar adi işlərdə çalışır, o qədər də çox qazanmırlar, amma yay tətilinin vacib olduğunu anlayır, ildə bir dəfə ələ düşən fürsəti dəyərləndirirlər.

Biz boyda olan ölkələrdə təmtəraqlı, beşulduzlu lüks otellərdə dincəlmək istəyənlər, buna imkanı çatanlar bir neçə min nəfər civarındadırsa, üçulduzlu otellərdə, kirayə evlərdə dincəlməyə çalışanlar bir neçə yüz min nəfərdir.

Gürcüstan və qismən Türkiyə bu kontingent üçün turizm xidmətləri təklif edir və bəhrəsini görür. Ona görə də bu ölkələrə axışan turistlər yüz minlərlədir.

Biz otelçilik işinə "beşulduzlu" səviyyədən başlamışıq. Ölkədə poqonunda tək ulduz daşıyanların sayı azdır, amma bizim otellər sanki kütləvi şəkildə general, nazir, rəis, milyonçu iş adamı qəbul edəcəkmiş kimi inşa edilib və edilir.

Bəzən heç təklif olunan xidmətlər də "beşulduzlu" deyil, hətta ulduzsuzdur, amma "oxunan qiymətlər" Ay-ulduz səviyyəsində, göylərdədir.

Yaşıl rayonlardakı otellərə, istrahət məkanlarına yüksək qiymətlər səbəbindən yaxın düşmək mümkün deyil. Hələ yeni tikilən otellərə baxırsan, binanın quruluşundan, eksteryerindən hiss edirsən ki, azı beşulduzlu olacaq.

Bəs bu otelin müsafirləri kim olacaq? Aydın məsələdir ki, bizdə, ölkə daxilində beşulduzlu otellərin lüks nömrələrini dolduracaq qədər pul-paralı adamlar yoxdur. Varlılarımızın mühüm bir qismi isə öz istirahətlərini məhz ölkədən kənarda həyata keçirir və həmişə belə olacaq.

Xarici ölkələrdə yaşayan imkanlı şəxsləri isə indilikdə ölkəmizə cəlb etmək problematik görünür - xüsusilə də bu tamah və xidmətlə.

Nəticədə o lüks otellər ya boş qalıb, ziyana işləyəcək, ya da inzibati resurslar hesabına onların rentabelli işləməsi təmin ediləcək.

Heç kəsə qəribə gəlməsin, bizdə belə bir praktika da var. Lüks otellər inşa etdirən bəzi nazirlər öz tabeliyində olanları öz otellərinə "dəvət edir"lər, onlar da məcburən "daxili turizm"ə töhfə verirlər.

Beləliklə, çox qazanmaq ehtirası üzündən yüz minlərlə ucuz tətilə ehtiyacı olan şəxs unudulur. Onlar turizm sektorundakı "qara bazar"a meyllənir, istirahət zonalarında kirayə evlər axtarır, tapır, çox lüks olmasa da, pis-yaxşı dincəlirlər.

Halbuki azulduzlu otellər inşa edib requlyar fəaliyyətini təmin etməklə həm yaxşı pul qazanmaq mümkündür. Bir neçə yüz min şəxs öz ölkəmizdə istirahət edər, üstəlik, yaxın-uzaq xaricdən kütləvi şəkildə turist cəlb etmək olar.

Quba-Qusar, Qəbələ-Qax, Lənkəran-Masallı, Nabran-Şabran, hətta Novxanı-Corat tərəflərdə bu layihəni həyata keçirmək mümkündür.

Yoxsa 3 ağacın altında düzəldilmiş talvarlarda yemək yeməyə görə adamdan o qədər pul istəmək və almaqla turizm inkişaf etdirmək mümkün deyil.

**Məsələn, bu sətirlərin müəllifindən "Qalaltı" sanatoriyasının düz altındakı istirahət guşəsindəki talvarda 3-4 saatlıq istirahət üçün 30 manat istədilər. Həm də "heç nə daxil" xidmət növünə görə... Eləcə, talvarda oturub özümüz hazırladığımız yeməyi yeyəcəkdik.**

# Azərbaycan Myanma qırğınını pislədi

## Fazil Mustafa: "Biz bu məsələlərdə birinci rol alacaq ölkə deyilik"

## Bəxtiyar Sadıqov: "Nə vaxtadək ikili standartlara dözəcəyik?"

**Myanmada müsəlmanlara qarşı törədilən kütləvi qətliam dünya gündəmindən düşmür. Təəssüf doğuran odur ki, dəhşətli faciənin üstündən bir həftədən çox ötsə də, qətliam hələ də davam edir, amma dünya birliyinin passivliyi bir yana əksər müsəlman dövlətləri susur, yalnız ötəri bəyanatlar verməklə işlərini bitmiş hesab edirlər.**

Təkcə Türkiyə dövləti qətliama ilk günlərdən sərt mövqe sərgiləyir. Azərbaycanın fonundan çıxış etsək, indiyədək Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi faciəyə münasibət bildirməyib. Gununsesi.info-nun əməkdaşı QMİ sədri, Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə ilə telefon əlaqəsi saxlayıb, şeyxin reaksiyası bu cür olub: "Mən indi məclisdəyəm, danışmaq imkanım yoxdur. Bizim idarənin mətbuat xidməti ilə əlaqə saxlasanız yaxşı olar".

Ölkənin siyasi qurumları da eyni susqun mövqedədirlər. Daim keçirdikləri aksiyalarla gündəmə gələn ölkə müxalifəti Myanma hadisələri ilə bağlı nəinki etiraz aksiyası, bəyanat belə vermirlər. Yalnız tənqidi qınaqlardan sonra bəzi müxalif və dövlət qurumları hərəkətə gəliblər.

"Myanmada Rohingya müsəlmanlarına qarşı davam edən kütləvi zorakılıq hallarından ciddi narahatlığımızı ifadə edirik". Bunu musavat.com-a açıqlamasında **Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** bildirib. "Biz beynəlxalq ictimaiyyətin, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının bu zorakılığın dayandırılması istiqamətində olan səylərini dəstəkləyirik", - deyə o vurğulayıb.

**Müxalif qurumlardan AĞ Partiya da qətliamla bağlı bəyanat verib:** "Bu gün dünyanın gözü önündə Myanmada insanlığa qarşı qətliam törədilməktədir. Myanmada yaşayan müsəlman gənc, körpə, yaşlı, qadın nəzərə alınmadan vəhşicəsinə öldürülür. BMT müdaxilə edərək, bu vəhşiliyi durdurmaq əvəzinə hələ də toplanıb formal qınama bəyanatı yayımladı. Müsəlman ölkələrindən isə yalnız Türkiyə bu məsələdə tək başına mübarizə aparmaqdadır. Digər müsəlman ölkələri təəssüf ki, hələ də mövqesiz qalmaqdadır. Biz AĞ Partiya olaraq bu hadisəni şiddətlə pisləyirik və qınayırıq. Bu soyqırımı sivil dünya üçün silinməz bir ləkə, bütün insanlıq üçün utancverici hadisə sayırıq. BMT sülhməramlı qoşunlarını Myanmada müdaxilə etməyə və oradakı günahsız insanları müdafiə etməyə çağırırıq. Bunun olmayacağı təqdirdə, İslam ölkələrinin sülhməramlı hərbi müdaxiləsini zəruri hesab edirik. Əks halda Xocalıda, Serebrenitsidə olduğu kimi müasir dünyanın gözü önündə Arakanda da dini mənsubiyyətinə görə bir müsəlman soyqırımını izləyəcəyik. Və bu da sivil dünya üçün silinməz bir ləkə olaraq qalacaq. Ayrıca da biz Ağ Partiya olaraq əhalisinin İslam dininə etiqad edən Azərbaycanın hökumətinin bu hadisəyə qarşı mövqesiz qalmasını da qınayırıq və təcili olaraq bu hadisəyə rəsmi münasibət bildirməsini tələb edirik. Unutmamalıyıq ki, dini-etnik mənsubiyyətinə görə Azərbaycan xalqı da Dağlıq Qarabağda etnik təmizləmələrə məruz qalıb".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** Azərbaycanın müsəlman deyil, dünyəvi dövlət olduğunu qeyd etdi: "Sadəcə, ölkəmizin əhalisinin böyük əksəriyyəti İslam dininin daşıyıcılarıdır. Bizim İslam faktoru ilə bağlı məsələlərdə birinci mövqeyə düşməyimiz kimi tələb yoxdur. Azərbaycan İslam Əməkdaşlığı Təşkilatının üzvüdür. Bu məsələdə öncüllüyü Türkiyə edir. Rəsmi Ankara da o yolu seçdi ki, qətliama İslam Əməkdaşlığı Təşkilatı vasitəsilə reaksiya verəcək, özü də birbaşa yardım edəcək. Azərbaycan burada nə edə bilər? İlk növbədə Banqladeş vasitəsilə orada zərərçəkmiş insanlara öz dəstəyini verə bilər. Digər tərəfdən də Türkiyənin öncüllüyü ilə Arakanda müsəlmanlara edilən zülmə qarşı bütün layihələrdə iştirak edə bilər. Eyni zamanda İslam Əməkdaşlığı Təşkilatı vasitəsilə bu məsələnin BMT kimi beynəlxalq qurumlarda gündəmə gətirilməsində köməklik göstərə bilər. Azərbaycan bu məsələlərdə birinci rol alacaq ölkə deyil. Burada edəcəyi fəallığın da təsirinin olacağını düşünmürəm. Kadırovun bu məsələyə yanaşmasında bir qədər fərqli nüanslar var. O özünü Rusiya müsəlmanlarının lideri obrazına gətirmək istəyir. Bu baxımdan belə aksiyalarla öz fikirlərini, düşüncələrini həyata keçirmək üçün fürsət kimi istifadə edir. Əslində bu məsələdə Rusiyanın Myanmara təsir etmək imkanları daha genişdir. Rusiya dövlət olaraq bunu edə bilər. Kadırovun atdığı addım Rusiyanın rəsmi mövqeyi kimi qəbul olunmasa da, Kremlin məsələyə bir baxışı, etirazı kimi qiymətləndirilir. Bu baxımdan Kadırovun etdiklərinin bizdə təkrar olunmasına lüzum yoxdur. Çünki Myanma müsəlmanları ilə bizim cəmiyyətin əlaqələri o qədər də geniş deyil. Amma istənilən halda müsəlman qardaşlarımızdır, onlara kömək etməliyik. Bu bizim mənəvi borcumuzdur".




**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** Myanmada dəfələrlə müsəlmanlara qarşı açıq şəkildə, qəddarlıqla qətliamların həyata keçirildiyini qeyd etdi: "Bütün dünya orada nələrin baş verdiyini görür. Yaxınlarda Parisdə keçədə bir terror hadisəsi baş verdi. O hadisədən sonra Avropanın liderləri Parisə gedib, orada qol-qola gəzərək etiraz aksiyası keçirdilər. Bu alqışa layiq bir hərəkət oldu. Myanmada terror baş vermir, amma terrordan dəhşətli olan soyqırım həyata keçirilir. Mövqe bildirməyi təkcə müsəlman dövlətlərinin üzərinə atmaq düzgün deyil. Kadırov buna yaxşı reaksiya verdi, Türkiyə mövqeyini sərgilədi. Azərbaycan isə narahatlığını bildirdi. Bunlar da münasibətdir. Amma bizlər nə vaxta qədər soyqırımı dinlərə görə böləcəyik. Xristianlara qarşı bir terror baş verəndə dünyanın aparıcı dövlətləri hərəkətə gəlir, bütün beynəlxalq qurumlar iclaslar keçirir, təsirli tədbirlər görürlər. Lakin müsəlman dövlətlərində bu tipli hadisələr yaşananda hər kəs deyir ki, bu həmin dövlətlərin işidir. O zaman beynəlxalq qurum və təşkilatlar nəyə lazımdır? Biz nə vaxta qədər bu ikili standartlara dözməliyik? Hər bir insanın ölümü dinindən, irqindən asılı olmayaraq faciədir. Nə vaxta qədər sortlara bölgülər olacaq? Bəyəm BMT-nin gücü çatmır Myanmadakı hadisələrin qarşısını almağa? Myanmadakı qüvvələrə silah verənlər o silahların onlara qarşı tuşlandığını bilmirlər? Orada insanları dininə görə qırdıqlarını görmürlər? Bu faciəni törədənlər bilirlər ki, cəzasız qalacaqlar. Türkiyədə də dəhşətli terror hadisələri oldu, Avropa liderləri ora getməsələr də, ən azından ciddi açıqlamalar verə bilərdilər. Dünya çox balacadır, amma bizə elə gəlir ki, böyükdür. Bir neçə nüvə silahını bir neçə yerdə partlatsan, yer kürəsi orbitindən çıxar. Kiçik dünyada sortlara, münasibətlərə bölmək heç vaxt bəşəriyyətə fayda gətirməyəcək. Deməyək ki, müsəlman ölkələri Kadırov kimi mövqe bildirmirlər. Bunu bütün dünya güclərindən umaq. Nə qədər ki, terroru dinlərə görə ayıracağıq, bu tipli hadisələrin qarşısını ala bilməyəcəyik".

**Yazı hazırlanarkən bəlli oldu ki, QMİ Myanmadakı qətliamı pisləyərək, "soyqırım" adlandırıb.**

❑ Cavanşir ABBASLI

# Eldar Mahmudovun "qalxanı" - onu azadlıqda saxlayan ilginc səbəb

## Sabiq nazir toxunulmazlığını vəzifədə olduğu illərdə necə təmin edib...

**Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra onun tezliklə həbsə alınacağı gözlənilirdi. 1 ay sonra E.Mahmudovun tutduğu postdan uzaqlaşdırılmasının 2 ili yekunlaşacaq, o isə azadlıqdadır. Ara-sıra sorağı gəlir. Rəsmilər ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyində(MTN) başlanan ildırım sürətli yoxlama və həbslərdən sonra verdikləri açıqlamalarda sabiq nazirin də həbsinin gerçəkləşəcəyinə işarələr vururdular. Artıq rəsmilər bu mövzudan danışmır, Eldar Mahmudovun adını belə çəkmirlər.**

"MTN işi" üzrə Bakı Hərbi Məhkəməsində 20-yə yaxın sabiq MTN-çi mühakimə olunur. Tutulanların demək olar ki, hər biri vaxtilə Eldar Mahmudovun yaxın ətrafına daxil olan, onun komandasının üzvləri olaraq MTN-də yüksək postlar tutmuş, onun təqdimatı ilə general rütbəsinə qədər yüksəlmiş şəxslərdir. Eldar Mahmudov isə onların arasında deyil. Baş prokuror Zakir Qaralov 2016-cı il oktyabrın 1-də Eldar Mahmudovun həbs edilməməsinin səbəbi ilə bağlı suala cavab verərkən demişdi ki, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları haqqında Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq davam edir. Bütövlükdə istintaq 280 epizod üzrə aparılır.

**Sitat:** "Artıq bilirsiniz ki, həmin cinayət işlərindən biri məhkəməyə göndərilib, digərləri üzrə istintaq davam edir. İstintaqın sonunda kimin həbs olunub-olunmayacağı bəlli olacaq. Prokurorluq orqanlarının ümdə vəzifələrindən biri də vətəndaşlarımızın ərizə və şikayətlərinin baxılmasıdır. Müraciətlər araşdırılır, müvafiq tədbirlər də görülür. kimin məsuliyyəti varsa, o, məsuliyyətdən kənarda qalmayacaq".

Bu gün məhkəmədə mühakimə olunan arasında Eldar Mahmudov yoxdur. Ara-sıra zərəçəkənlər onun məhkəməyə heç olmasa şahid qismində çağırılmasını tələb etsələr də, ali savadlı hakimlər bu tələbləri də cavabsız buraxmağa üstünlük verirlər.

Bu gün Eldar Mahmudovdan savayı onun müavinləri Əli Şəfiyevlə Hilal Əsədovun da statusları bəlli deyil. MTN-dəki məlum əməliyyatlardan sonra Hilal Əsədovun saxlanılması haqda xəbərlər dolaşsa da, sonradan bu məlumatlar təsdiqini tapmadı. Əli Şəfiyevin barəsində isə bir növ məlumat kasadlığı var. Bilinən odur ki, MTN ləğv olunandan sonra bazasında yaradılan Dövlət Təhlükəsizlik Xidmətində fəaliyyətini davam etdirib.

Ə.Şəfiyev E.Mahmudovun dövründə milli təhlükəsizlik nazirinin müavini olub. Ə.Şəfiyev Eldar Mahmudovun əmisi qızının həyat yoldaşıdır. Eldar Mahmudovun nazirliyi dövründə polkovnik-leytenantdan general leytenant rütbəsinə qalxıb, müavin təyin olunub. Mahmudov onun yaxasından 1 orden, 2 medal asıb.



Sabiq nazirin əmisi oğlu, 2015-ci ilin noyabrında məsuliyyətə cəlb edilən "Azərtürkbank" ASC-nin "Bakı" filialının sabiq müdiri İlham Mahmudovu da 1 həftə əvvəl məhkəmə zalında azad etdilər. Vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirli bilinən İlham Mahmudov 2015-ci il martın 3-dən etibarən tutduğu vəzifədə işləyərkən saxtakarlıq etməkdə təqsirli bilinirdi. İttihama görə İlham Mahmudov vəzifəsindən sui-istifadə edərək qardaşının həyat yoldaşı Nuranə Mahmudovanın adına depozit hesabları açıb. Həmin hesablara 5 əmanət müqaviləsi üzrə ümumilikdə 103 min manat köçürüb. Həmçinin qardaşı İlqar Mahmudovun adına 10 min dollar, onun həyat yoldaşı Fatma Mahmudovanın adına illik 2 faiz ödənməklə 45 min avro depozit hesablarına qoyulub. 2015-ci ilin iyulun 16-da həyat yoldaşı Kəmalə Mahmudovaya cari hesab açaraq 1100 manatın mədaxil olunmasını təşkil edən İlham Mahmudov etibarnamələr əsasında həmin hesablar üzrə əməliyyatları idarə etməkdə də təqsirləndirilirdi. İlham Mahmudov bundan başqa 2015-ci ilin 4 noyabrında qardaşı Vüqar Mahmudovun sürücüsü Nicat Məmmədovun istifadə etdiyi "Kapitalbank" ASC-yə aid plastik bank kartını dəyişmək adı ilə aldadıb və işlədiyi filiala dəvət edib. İttihama görə o, N.Məmmədovun etibarından istifadə etməklə ona hər hansı məlumat vermədən adına bank hesabı açıb. Hesabı açandan sonra o, Nicat Məmmədovun xəbəri olmadan qardaşı Vüqarın həyat yoldaşı Nuranə Mahmudovanın adına köçürülmüş 1 milyon 530 min dolları qanunsuz olaraq çıxarıb. İttiham bir kənara qaldı, hakim sabiq nazirin əmisi oğlunu məhkəmə zalından açıb buraxdı.

MTN-in ləğvindən sonra baş verənləri də nəzərdən keçirəndə belə fikir yaranır ki, sanki, Eldar Mahmudov bu gün də vəzifədədir və əlində hər kəsə, hakimlərdən tutmuş onun barəsində tədbir görməli şəxslərə qədər təsir imkanlarını saxlayır.

Nədir sabiq naziri bu qədər güclü edən?

MTN-in ləğvi ilə nəticələnən prosesi izləyənlərin bir çoxunda belə bir fikir yaranıb ki, Eldar Mahmudovu güclü edən əlindəki kompro-materiallardır. Həmin materialların daha çox siyasi-kriminal xarakter daşıdığı haqda da ara-sıra bilgilər yayılır. Belə anlaşılır ki, E.Mahmudov MTN-ə rəhbərlik etdiyi 11 il ərzində özünü qorumaq üçün çox ciddi işlər görüb, kompromat arxivi yaradıb. İndi isə həmin arxiv onun üçün "qalxana" çevrilib.

İstefada olan təhlükəsizlik xidməti polkovnik-leytenantı İlham İsmayıl deyir ki, Eldar Mahmudovun istintaqa cəlb olunmaması istintaq orqanlarının problemi deyil. İ.İsmayıl deyir ki, Eldar Mahmudovun istintaqa cəlb edilməsi üçün kifayət qədər əsaslar var: "Deyək ki, Eldar Mahmudovun əleyhinə ifadə verən yoxdur. O, 10 ildən artıq böyük bir nazirliyə rəhbərlik edib və ən azı ətrafında baş verən cinayətlərə görə vəzifə səlahiyyətlərinə səhlənkar yanaşdığına görə məsuliyyətə cəlb olunmalıdır. Onun bu səhlənkarlığına görə dövlətə dəyən ziyanları ortaya qoyub Eldar Mahmudovu istintaqa cəlb etmək olar. Amma bu gün bizim "Eldar Mahmudov niyə istintaqa cəlb olunmur" deyib fal açmağımıza ehtiyac yoxdur. Bu gün hərə bir pərdəarxası, kluar söhbətlərinin nədən ibarət olması, Beynəlxalq Bankın pullarının geri qaytarılmasına görə bu adamın azadlıqda olması fikirlərini deyir. Amma bu gün Eldar Mahmudovun nədən azadlıqdan olmasını dəqiqliyi ilə buna səlahiyyəti olan şəxs bilə bilər".

**Qeyd edək ki, İ.İsmayıl bir müddət əvvəl bu mövzuda müəllif yazısı ilə çıxış etmişdi. Həmin yazı belə bir fikirlərlə yekunlaşırdı.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Ərəblər Azərbaycanda torpaq ala bilərmi?

## İqtisadçılar qadağanı aradan qaldırılmasına tərəfdardırlar

**Son illər ölkəmizə ərəb turistlərin axın etməsi və onların Azərbaycan təbiətinə nə qədər vurğun olması hər kəsə bəllidir. Hətta ərəb milyonçularının Azərbaycanda mənzil sahibi olması, eləcə də torpaq alması ilə bağlı məlumatlar da var. Burada ziddiyyətli olan bir məqam var ki, Azərbaycan qanunvericiliyi xarici vətəndaşların ölkə ərazisində torpaq sahibi olmasını qadağan edir. Əcnəbi şəxs heç bir halda torpaq mülkiyyətçisi ola bilməz. Regionlarda torpaq sahibi olmaq istəyən ərəblərə də məhz bu qadağa mane olur. Təbii ki, bu da ölkəmizə əlavə vəsait axınının qarşısını almaqla yanaşı, xarici investorların regionlarda biznes qurmasına da mane olur.**

Artıq əksər iqtisadçı ekspertlər, hüquqşünaslar bu qadağanın əhəmiyyətsiz olduğunu bildirirlər. Çünki rayonlarda torpaq sahibi olmaq istəyən əcnəbilər bunu müxtəlif yollarla həyata keçirirlər. Nəticədə həmin vəsaitlər dövlət büdcəsindən yayınmış olur.

**İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verərkən bildirdi ki, Torpaq Məcəlləsinin 5-ci maddəsinin 2-ci bəndinə əsasən torpaq üzərində mülkiyyət hüququ yalnız Azərbaycan vətəndaşlarına və hüquqi şəxslərinə mənsub ola bilər: "Beləliklə, xarici vətəndaşlar və hüquqi şəxslər Azərbaycanda torpaq sahəsinin mülkiyyətçisi ola bilməz. Yalnız icarəçisi ola bilər. Bu baxımdan ərəblərin ölkəmizdə birbaşa torpaq mülkiyyətçisi olması mümkünsüzdür. Əlbəttə, onlar bizim vətəndaşların adına torpaq ala bilər, amma bu o demək deyil ki, mülkiyyətçi olurlar. Bu halda mülkiyyətçi bizim vətəndaşdır və ərəb həmin torpağı ondan heç bir halda tələb edə bilməz. Başqa məsələ ki, xarici vətəndaş, o cümlədən ərəb Azərbaycanda hüquqi şəxs (məsələn, məhdud məsuliyyətli cəmiyyət) təsis edib, torpağı həmin hüquqi şəxsin adına ala bilər. Bu halda həmin hüquqi şəxs yerli hüquqi şəxs hesab edilir, çünki Azərbaycanda təsis edilib, buna görə də torpağın mülkiyyətçisi ola bilər. Əlbəttə, faktiki həmin hüquqi şəxsin sahibi xarici vətəndaş olduğu üçün belə çıxır ki, dolayısı ilə elə torpağın da sahibi odur. Bu mümkündür və faktiki olaraq mövcud qadağanın yanından ötüb keçməyə imkan verir. İstisna deyil ki, ərəblər də belə edir. Bütövlükdə bu qadağanı səmərəsiz hesab edirəm".

**İqtisadçı ekspert Natiq Cəfərli** isə vurğuladı ki, bununla bağlı dünyada bununla bağlı müxtəlif təcrübələr var: "Qardaş Türkiyədə artıq əcnəbilərin torpaq mülkiyyətçisi olması ilə bağlı heç bir məhdudiyyət yoxdur. Əvvəl belə bir məhdudiyyət var idi, lakin 5 il öncə qanunvericilik səviyyəsində məhdudiyyət ləğv olundu. İndi isə daşınar və daşınmaz əmlak almaqla bağlı xarici vətəndaşlara heç bir məhdudiyyət qoyulmur. Elə bunun nəticəsidir ki, son 5 ildə Türkiyədə həm mənzil bazarına, həm də torpaq fonduna qoyulan investisiyaların həcmi milyardlarla dollar həcmində ölçülür. Gürcüstanda da 2008-ci ilə qədər müəyyən məhdudiyyətlər mövcud idi, sonradan bütün məhdudiyyətlər aradan qaldırıldı. Yeganə olaraq müəyyən tələblər qoyulub. Əgər xarici vətəndaşın pulu və torpağı almaq istəyi varsa, o hüquqi şəxs yaradıb daşınmaz əmlak ala bilər və ya hər hansı yerli vətəndaşın adına aldıqdan sonra istifadə edə bilər. Bu cür məhdudiyyətlərdən yan keçmək üçün kifayət qədər imkanlar var. Mənim fikrimcə, məhdudiyyət qoymaq əvəzinə xarici vətəndaşlara torpaq sahibi olmağa icazə verməklə, müəyyən nəzarət mexanizmləri işə salmaq olar. Məsələn, cəbhə bölgələrinə xüsusi diqqət yetirilə bilər, hərbi obyektlərin yaxınlığında olan ərazilərə nəzarət oluna bilər, orada torpağın xaricilərə satılmasına məhdudiyyət qoyula bilər".

**İqtisadçı sözlərinə görə, dünya praktikası göstərir ki, daşınmaz əmlakın alınması ilə bağlı qoyulan məhdudiyyətlər effekt vermir:** "Xarici vətəndaşlar bu qadağalardan yan keçmək üçün kifayət qədər yan addımlar tapa bilirlər. Türkiyədə bu çox təcrübə olundu, məhdudiyyətlərin ləğv olunması xeyli müzakirə olundu. Sonra anladılar ki, bu həm biznesin qarşısını alır, həm ölkəyə valyuta gəlməsinə mane olur. Həm də bu məhdudiyyətlərdən müxtəlif yollarla yan keçmək mümkündür. Ona görə də bu qadağanı aradan qaldırdılar. Azərbaycanda da belə olmalıdır, əgər ərəblər regionlarda torpaq almaq istəyirlərsə, bu, niyə də olmasın..."

❑ **Nərgiz LİFTİYEVA**

# Məktəbli ləvazimatları valideynlərin cibini "yandırır"

## Bir uşağı məktəbə yola salmaq valideynlərə azı 200 manata başa gəlir...

**Yeni tədris ilinin başlamasına 10 gün qalıb. Övladını məktəbə yola salacaq valideynlər son hazırlıqlarını görür, yarımçıq qalmış məktəb alış-verişini tamamlayır. Adətən dərs başlamağa sayılı günlər qalanda məktəbli ləvazimatlarının qiymətlərində artım müşahidə edilir.**

Bu sahədə son vəziyyəti öyrənmək üçün "28 may" metro stansiyası yaxınlığındakı məktəbli yarmarkasına baş çəkdik. İlk olaraq alıcıların azlığı diqqətimizi cəlb etdi. Görünür ki, bir çox valideynlər artıq bazarlıqlarını ediblər. Qiymətlərə gəlincə məktəbli çantaları 15-130 manat arası, 12 vərəqli dəftərlər 15 qəpik, 40 vərəqli dəftər 35 qəpik, 60 vərəqli dəftər isə 55 qəpiyə satılırdı. Rəngli karandaşların qiyməti 2-8 manat arasında dəyişirdi. Penalar 2-6 manat arasında dəyişirdi. Məktəblilər üçün su qabı isə 2 manatdan başlayır. Qiymətlər məhsulların Türkiyə və ya Çin istehsalı olmasına görə dəyişir. Satıcılar digər yerlərlə yarmarkadakı qiymətlər arasında 5-10 faiz fərq olduğunu deyirdilər: "İlkin görünüşdə 5 qəpik az görünə bilər. Ancaq valideyn 1 dəftər, 1 qələm alır. Bir neçə məktəb ləvazimatından 5 qəpik qalanda bu xeyli pul edir. Həmin pula da başqa bir məktəb ləvazimatı almaq olar".

**Digər satıcı Elvin İbrahimov** isə alıcıların qıtlığından şikayət etdi: "Alıcılar olduqca azdır. Gəlib baxırlar, gəzirlər, burdan da ucuz yer axtarırlar. Bəzən bizdən endirim etməyimizi istəyirlər. Bu isə bizə sərf etmir. Çünki hər malın üstündən bizə qəpik-quruş qalır. Heç burada səhərdən axşama qədər dayanmağın əziyyətini qazandığımız qarşılamır. Elə valideynlər olur ki, deyir 10 manata çanta ver, amma Türkiyənin olsun, keyfiyyətli olsun, ən azı 3 il uşaq götürə bilsin. Axı bu mümkün deyil. Bunlar da yaxşı çantalardır, amma valideynlərin istədiyi kriteriyalarda deyil. Yaxşı çantalar 50 manatdan başlayır, 130-140 manata qədər davam edir. Al, 3 hətta 4 il götür. Nəsə olsa, cırılsa biz cavabdehik".










Alıcılar arasında yarmarkalarla mağaza və digər yerlər arasında qiymət baxımından elə də bir fərq olmadığını deyənlər də vardı, bunun əksini düşünənlər də. **Alıcı Zəminə Əliyeva** qiymətlərdən narazı idi: "İki övladımı məktəbə yola salmalıyam. Bu isə o deməkdir ki, hər şeydən iki-iki almalıyam. Aylıq büdcəmiz isə 350 manatdır. Bununla uşaqlara məktəb bazarlığı edək, yoxsa onlara yemək alaq. Çox çətindir. Qiymətlərdə isə bir fərq görmürəm. Keyfiyyətli mallar bahadır. Keyfiyyətsiz çanta alım, 5-6 aya cırılsın, sonra məcbur yenə almalı olacağam. Ona görə də elə bir dəfəlik almaq yaxşıdır".

**Digər bir alıcı Nihat Məmmədov** isə qiymətlərin münasib olduğunu dedi: "Demək olar ki, hər şeyi bu yarmarkadan aldıq. Çantadan tutmuş qələmə kimi qiymətlərin çox səmtli olduğunu düşünürəm. Bir uşaq üçün məktəb alış-verişinə 150 manat pulum çıxdı".

Müşahidələrimizdən belə aydın olur ki, məktəbli geyimi və ləvazimatları ilə birlikdə bir şagirdin məktəbə yola salınması valideynə minimum 200 manata başa gəlir.

Qeyd edək ki, bir müddət öncə **"Bakı Tikiş Evi" Açıq Səhmdar Cəmiyyətinin satış şöbəsinin rəisi Etibar Əzimov** məktəbli geyimlərinin də qiymətlərini açıqlayaraq yuxarı siniflər üçün 46, aşağı siniflər üçünsə 40 manat olduğunu bildirmişdi. E.Əzimov valideynlərə səslənərək baha qiymətə satılan məktəbli geyimlərini almamağı, üzərində yalnız "Bakı Tikiş Evi"nin emblemi olan və yuxarıda qeyd edilən qiymətə olan geyimləri almağı tövsiyə edib. "Bakı Tikiş Evi"nə məxsus olan məktəbli formalarını haradan almaq məsələsinə gəlincə isə yaşadığınız ünvandan istənilən vaxt 012 597-45-39 nömrəli qaynar xəttə zəng etməklə sizə yaxın olan ünvanı seçə və ya bu formalarla bağlı iradınızı bildirə bilərsiniz. Xatırladaq ki, paytaxtda, o cümlədən rayonlarda məktəbli formalarının qiyməti olduqca baha, öz qiymətindən 20-30 manat baha satılır.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Yay bitdi: qarşıda bizi nələr gözləyir - iki rəy

## Natiq Cavadlı: "Mövsümün yekunlaşması bir çox sahələrə təsir edəcək"

**Artıq yay mövsümü bitmək üzrədir. Adətən yay fəslinin başa çatması ilə bir çox sektorlarda fəaliyyətlər zəifləyir. Artıq rayonlarda, xarici ölkələrdə istirahət edən Bakı sakinləri geri qayıdırlar. 10 gün sonra növbəti tədris ilinin başlaması ilə şəhərdə insan sıxlığı daha da artacaq. Lakin bu, heç də bütün sahələrdə aktivlik dinamikasının artması demək deyil.**

Məlum olduğu kimi, yay fəslində küçə ticarəti xeyli geriləyir. Hazırda metronun bir çox stansiyalarının qarşısında piştaxtalar qurub, tərəvəz, müxtəlif növ geyim satanlara rast gəlirik. Onlarla da söhbətimiz zamanı təsdiqlədilər ki, havalar soyuduqca, fəaliyyətlərini yekunlaşdıracaqlar.

**Yol kənarında tərəvəz satan Maral Həmzəyeva bildirdi ki, məhsulların hamısı öz bağındandır:** "Yay aylarında istirahət etməyə pulum yoxdur. Evdə də oturmaqdan sıxılıram. Ona görə də elə məhsullarımızı yığıb, küçədə satırıq. Yay mövsümü başa çatdığı üçün bizim fəaliyyətimiz də dayanacaq. Çünki bazarlarda yer götürməyə imkan yoxdur. Ümumiyyətlə, yay ayında bazara getsən, orada yer tapmaq çətin məsələdir. Tapdığın da ya künc-bucaqda olur, ya da çox baha qiymətə verirlər. Ona görə də camaat əgər yay ayında nə isə satmağı planlaşdırırsa, artıq mövsüm başlamamış icarəyə yer götürür. Küçədə al-ver edənlərin əksəriyyəti imkansızlıqdan çörəkpulu qazananlar, ya da öz bağının məhsulunu satanlardır. Ona görə də icarə yer götürməyi düşünmürlər".








Yay mövsümünün başa çatması ilə çimərlik mövsümü də bitir. Bu isə o deməkdir ki, çimərliklərin ətrafında yerləşən bahalı kafelərin, mağazaların da fəaliyyəti zəifləyəcək. Bunlar hər birimizin gözlə gördüyü arqumentlərdir. Yay fəslinin bitməsi ilə ölkənin ümumi iqtisadi vəziyyətində hansı dəyişikliklərin baş verməsi barəsində isə "Yeni Müsavat"a **iqtisadçı ekspert Rəşad Həsənov** danışıb. O bildirib ki, müxtəlif fəsillərdə iqtisadi dinamikada müəyyən dəyişikliklər hiss olunur: "Bəzi sahələr yay fəslində xüsusilə daha da aktiv olurlar. Bura turizm, aqrar, xidmət, ticarət, müəyyən qədər də tikinti sektoru daxildir. Artıq mövsümün yekunlaşması ilə əlaqədar bu sahələrin dövriyyəsində azalma baş verir. Xüsusilə hazırda tədris ilinin başlaması ilə əlaqədar olaraq, daha çox turizm sektorunda geriləmə hiss olunur. Bu sahədə fəaliyyət göstərən subyektlər demək olar ki, öz fəaliyyətlərinin son günlərini həyata keçirirlər. Bu, həmçinin dəniz turizmi, havanın, suyun temperaturu ilə də əlaqədar olaraq müşahidə olunan haldır. Artıq aqrar sektorda da bir sıra sahələrdə məhsul yığımının başa çatması və qısamüddətli dövr üçün torpağın dincə qoyulması baş verir ki, bu da müəyyən mənada aqrar sektorda aktivliyi azaldan amildir. Tikinti ilə əlaqədar da hələ ki ciddi hiss olunmasa da, növbəti aylarda azalma müşahidə ediləcək. Xüsusilə də açıq hava şəraitində tikintinin həyata keçirildiyi meydançalarda işlərin həcmində azalma olacaq. Ancaq tikinti sektorunda fərq digərləri ilə müqayisədə ondan ibarətdir ki, qapalı sahədə işlərin davam etdirilməsi qış aylarında belə müşahidə edilir".

Yay fəslinin bitməsi ilə siyasi sahədə də baş verən durğunluq, getdikcə aradan qalxır. Buna səbəb məzuniyyətlərin başa çatması, dövlətlərarası siyasi danışıqların yenidən aktivləşməsidir. **Politoloq Mübariz Əhmədoğlu** "Yeni Müsavat"a bildirib ki, yayın bitməsi ilə ölkə müxalifətinin fəaliyyətində nələrinsə dəyişəcəyini düşünmür: "Ölkənin daxilində yayda hansı proseslər gedirdisə, payızda da elə olacaq. Arzu edərdim ki, bizim müxalifətdə də aktivlik olsun. Təbii ki, söhbət normal, dövlətçiliyi sevən aktivlikdən gedir. Ancaq bu, yoxdur. Müxalifət liderləri ən vacib hadisələrə belə normal münasibət ortaya qoya bilmirlər. Arzu edirəm ki, Mehman Əliyevin həbsi kimi hadisələr elə yayda qalsın. Beynəlxalq aləmə gedən proseslərə gəlincə isə yay aylarında Azərbaycanla bağlı kifayət qədər ciddi məqamlar baş verdi. Adətən siyasətçilər üçün yay fəslində sakitlik olur. Ancaq son 3-4 ildir ki, bu, belə deyil. Yay aylarında Azərbaycan və Rusiya prezidentləri görüşdülər ki, bu görüş indi də müzakirə edilir. Hesab edirəm ki, Rusiya çalışır ki, Azərbaycanı Suriya prosesinə qoşsun. Düşünürəm bu məsələdə Azərbaycanla Rusiya arasında müəyyən mənada fikir ayrılığı var. Yay fəslində Azərbaycanın Rusiya ilə siyasətində daha bir paradoksallıq onda oldu ki, Rusiya xarici işlər naziri bütün diplomatik etiketləri tapdalayaraq, Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etməkdən imtina etdi. Bu, normal ağıla sığan bir şey deyildi. Rusiyanın Dağlıq Qarabağla bağlı siyasətində hesab edirəm ki, zərrə qədər ermənipərəstlik yoxdur. Yalnız onlar öz maraqlarına xidmət edirlər. Hesab edirəm ki, bir müddət sonra Suriya mövzusu Rusiyada aktuallığını itirəcək. Düşünürəm ki, yaydan sonra daha pozitiv dövr başlayacaq. Çünki proseslər Rusiyanı sıxır. Yay aylarında Amerika-Azərbaycan münasibətlərində çox intensiv dövr oldu. Yazışmalar aparıldı, təbrik mübadilələri müşahidə edildi. Bunu da bitmiş hesab etmirəm. Payız aylarında da bu, davam edəcək. Çünki Trampın həm Koreya, həm də Əfqanıstan məsələsi ilə bağlı Qazaxıstan prezidentinə müraciəti əslində Avrasiya materiki üzrə ABŞ prezidentinin siyasətinin dəyişdiyini göstərir. Bu istiqamətdə Azərbaycan üçün də addımlar görəcəyik. Yay ərzində İranla Azərbaycanın münasibətlərində elə bir ciddi dəyişiklik olmadı. Ruhaninin komandası indi formalaşır və payız aylarında İranla münasibətlərimizdə passivlik bitəcək. Türkiyə ilə münasibətlərdə isə ciddi dəyişiklik gözləmirəm. Yayda hansı proseslər gedirdisə, yayda da eyni qayda üzrə davam edəcək".

**Onu da qeyd edək ki, yay mövsümünün başa çatması ilə media sahəsində də aktivlik, oxucu sayı çoxalır.**

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Prosineçkini buraxın getsin...

## Milli komandaya rəhbərlik edən baş məşqçi ölkəmizə də, milliyə də yad adam obrazından qurtula bilmir...






**Rəşad Sadıqov Norveçlə səfər oyununda qapımıza 2-ci topu vurandan dərhal sonra bir neçə anlıq da olsa pultla telekanalları "gəzməyə başladım". Kanalların hansındasa, Ramiz Mirişlinin yaradıcılıq gecəsini verirdilər və təsadüfə bax ki, müğənni xanım "Yandım elə yandım..." mahnısını oxuyurdu... İlk cümləni Rəşad Sadıqovla başlamağım hörmətə layiq veteran futbolçumuzu qaralamaq kimi anlaşılmasın.**

Rəşad Azərbaycan futbolu üçün bacardığını edib. Belə mühüm oyunda avtoqolun nə olduğunu Rəşaddan yaxşı bilən də yoxdur. Müdafiəçimiz əvvəlki formada olmadığı aydındır, o, böyük futboldan nə vaxt gedəcəyinə "Qarabağ"ın Çempionlar Liqasının oyunlarından sonra qərar verəcəyini deyib. Bu qərara qədər isə sosial şəbəkələrdə hay-həşir etməmək lazım, əksinə, zamanı yetişəndə veteranı haqq etdiyi hörmətlə yola salmaq lazım. Rəşad 60-cı dəqiqədə topu qapımıza vurmasaydı belə, milli komanda Norveçdən çətin ki, xalla qayıdaydı. Amma bu matç çox önəmli idi və Azərbaycanın pley-off mərhələsinə keçmək şansı vardı.

***

Bayram səbəbindən dünya çempionatının seçmə mərhələsinin bir çox oyunlarına rahat baxa bildik. Maraqlı oyunlar oldu. Amma mənə italiyalıların İspaniya, Qazaxıstanın isə Polşa ilə qarşılaşmasında oxuduqları... himn daha çox zövq verdi. Həm İtaliya, həm qazaxlar 3 top fərqi ilə uduzdular, amma bu milli komandaların uduzması idi. Elə son Avropa çempionu Portuqaliyaya qarşı Macarıstanın oyunu da eyni ilə. Qırmızı vərəqə ilə azlıqda qaldılar, heç nədən bir top buraxmasaydılar, Ronaldonun komandası rüsvay olacaqdı. Amma macarlar uduzsalar belə, ən yaxşı sözlərə layiqdirlər.

Türkiyə millisi Xarkov səfərində Azərbaycandan da betər oynadı. Türkiyə ruhu bədəndən çıxarılmış 11 bivec adam təsir bağışladı. Aman Allah, bizim klub və milli oyunçulara bir sərt tənqid yazanda xətirlərinə dəyir, narazı qalırlar. Luçeskonun komandasına (həmin oyuna görə milli komanda deməyək) idman şərhçiləri nələr demədi... Amma o şərhçilərin birinin dediyi (kanal A-da) sözləri Norveçlə oyuna görə bizim milli komandaya da aid etmək olar: "Ruhsuzlar..."

***

Norveçlə qarşılaşmada əsas problemin səbəbi nə yaşlaşmış müdafiəçi qardaşımız, nə sir-sifətindən məşqçiyə az bənzəri olan Robert Prosineçki, nə optimal heyət deyildi. Osloda komandanın ruhu yox idi. "Ruhu ölüb" deməyə dilim gəlmir, çünki heç əvvəl də o ruhlu komandanı meydanda bəlkə də barmaq hesabı oyunlarda görmüşük.

***

San-Marino ilə Bakıdakı qarşılaşmada rəqib də elə o gündə idi. Fransa millisində yəqin ki, genetik fransızlar oynamır. Axtarsan hərəsinin qanında bir qitənin qanı axır. Heç himni də fərli oxumurlar. Amma bu oyunçular hərəsi bir klubun ulduzudur. Fərdi ustalıq və komanda sistemi hər şeyi həll edir. Azərbaycan kimi futbolçudan kasad ölkələrdə isə milli komandada ya çox güclü məşqçi korpusu olmalıdır, ya da futbolçu-vətəndaş... Komanda meydana çıxanda unutmamalıdır ki, bir ölkəni təmsil edir.







Cənubi Amerikada milli komandanın oyunçularını tez-tez güllələyirlər. Yalnız ona görə yox ki, həm dəli, həm fanatikdirlər. Həm də ona görə ki, belə ölkələr tanınmaq üçün futbolu bir şans bilirlər. Komanda uduzanda bunu az qala milli faciə kimi qəbul edirlər. Biz o mərhələni hələ keçirik, millinin uduzmasını özümüzə çox dərd edirik. Amma şükür ki, indi qapımıza 10 top yox, özümüz qrupda 10 xal toplayırıq. Maksimalist olmaq lazım deyil, Azərbaycanın dünya çempionatında hələ işi yoxdur. Əslində, millinin 10 xalı da elə klub komandalarında oynayan oyunçuların hesabınadır. Prosineçkinin tarixi uğur dediyini o futbolçular alın təri ilə qazanıblar... Baş məşqçiyə qarşı insafsızlıq etdiyimi düşünmürəm, Prosineçki ölkəmizə də, milliyə də yad adam obrazından qurtula bilmir…



***

Prosineçki San-Marino ilə oyun bitən kimi sevincək rəqib komandanın baş məşqçisinin əlini sıxdı. Toplanan 10 xalın 6-sını Prosineçki San-Marinodan alıb axı... Çexlərlə Praqada heç-heçə, Norveçi Bakıdan minimal hesabla udmaqla 4 xal qazanmışıq. Yəni bu San-Marino olmasaydı, biz futbola dəxli olan iki komandadan xal almışıq. Almaniyaya Bakıda uduzmuşuq, Şimali İrlandiyaya hər iki oyunda məğlub olmuşuq. Norveçə rəqib meydanında uduzduq. Yəni milli komandada əməyi olan hər kəsə təşəkkür edərək, gələcək haqda düşünmək lazımdır. Azərbaycan bu seçmə mərhələdə keçmiş sovet respublikaları sırasında hələ ki ən çox xal toplayan komandadır. Bundan əvvəlki yazılarımda da yeri gələndə qeyd etmişdim ki, milli komandaya brend kimi - "Made in Azerbaijan" kimi baxılmalıdır. Azərbaycan milli komandası şükür edək ki, daha biabırçı hesablarla uduzub üzərimizə gəlmir. Amma brend olması üçün həmişə udması vacib deyil, rəhbərlik və oyunçular bunu tam mənasında anlamalı. Milli komanda təkcə maaş yeri deyil axı...

***

Dünya futbolunda bir özünəqayıdış başlayıb. Yəni yerli məşqçilərə üstünlük verilir. Bu milli komandadırsa, onun sükanı arxasında bu milləti sevən, onun ruhunu bilən adam olmalıdır. Klub komandaları fərqli, amma milliyə yerli məşqçi gətirilməlidir. İngiltərə ilə Slovakiyanın oyununda rus şərhçi də bu mövzuya toxundu. Dedi ki, ingilislər uzun illər(yəqin ki, komandaya 6 il rəhbərlik edən İsveç Sven Erikssonu nəzərdə tuturdu) əcnəbi baş məşqçi ilə işləməyin cəzasını çəkib. Daha bir maraqlı faktı da yada saldı. Komandaya 1966-cı ildə yeganə dünya çempionluğunu ingilis mütəxəssis Alf Ramsey qazandırıb. İndi İngiltərənin baş məşqçisi çoxlarının tanımadığı yerli mütəxəssis Qaret Saytqeytdir. İngiltərə gənclərdən formalaşmış yaxşı komandadır, qrup lideridir və bu, həm də yerli mütəxəssisin uğuru kimi qiymətləndirilir.

***

Prosineçki hansısa ölkənin klubuna getmək istəyirsə, onu buraxmaq lazımdır. "Niyə də yox" sloqanı bu məsələdə də aktualdır. Xaricdən baş məşqçi gətirmək kimlərinsə biznesidirsə, bunu milli komanda üzərindən etməməkdə lazım...

***

**Oktyabrda seçmə mərhələ yekunlaşır və Azərbaycanı səfərdə Almaniya ilə çətin oyun gözləyir. Almanlar bizim bacarmadığımız Norveçin qapısını "aşsüzən" etdi. Heç olmasa, Almaniya ilə oyunda Azərbaycan millisi kimi oynayaq...**

**❑ Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 183 (6797) 6 sentyabr 2017

# 2012 litr kapuçino hazırlandı



Xorvatiyanın paytaxtı Zaqrebdə 2012 litr həcmində kappuçino hazırlanıb. Bu kappuçino da "Ginnesin Rekordlar Kitabı"na düşüb. "The Daily Telegraph" qəzetinin yazdığına görə, rekord kappuçinonun hazırlanması üçün 22 kode maşını lazım gəlib ki, onu da şəhərin mərkəzi meydanında yerləşdiriblər. Mindən çox insanın iştirak etdiyi tədbirin sponsoru avstriyalı firma Julius Meinl Group olub. Rekord sözügedən kampaniyanın 2012-ci ildəki 150 illik yubileyi münasibətilə keçirilib. Ən böyük kapuçinonun hazırlanması 3 aya başa gəlib. Kapuçinonun hazırlanması klassik qaydada olub. 2009-cu ildə Praqada da 2117 litr kappuçino hazırlandığı iddia edilsə də, bu, "Ginnesin Rekordlar Kitabı"na düşməyib.



## 5 butulka içki oğurluğu istintaqa 280 min dollara başa gəldi

Britaniyada marketdən 5 butulka spirtsiz "Vimto" içkisinin oğurlanması üzrə işin istintaqına 280 min dollardan çox pul xərclənib. "The Daily Telegraph" qəzetinin xəbərinə görə, bu vəsait hüquqşünasların məsləhətlərinə və istintaqı aparan polislərin maaşlarının ödənilməsinə sərf olunub.

Məlumatda deyilir ki, nəqliyyat polisinin iki əməkdaşı dəmir yol xəttinin kənarından içərisində 5 şüşə qazlı içki olan karton qutu tapıblar. Təlimata görə, onlar tapıntını ya itmiş, ya da oğurlanmış əmlak kimi rəsmiləşdirməliydilər. Ancaq isti havada polislər qazlı içkini öz yoldaşları ilə bölüşdürüb içiblər. Nəticədə polis içkinin oğurlanması ittihamı üzrə onlara qarşı cinayət işi qaldırıb, il yarım davam edən istintaq ərzində onları vəzifələrindən azad ediblər və hər birini 400 funt cərimələyiblər. İşin istintaqına isə böyük məbləğdə pul xərclənib. Halbuki qazlı içkiləri yolun kənarından tapıb içən polislərə irad bildirmək də kifayət edərdi. Qəzet bu faktı Britaniyada xırda qanun pozuntularına görə bəzən illərlə davam edən və böyük vəsaitlər hesabına başa gələn mənasız istintaq proseslərinə nümunə kimi göstərir.

# Dabanınız sərtdirsə, xərçəng ola bilərsiniz

Ayaq dabanındakı sərtliyə insanlar əsasən, əhəmiyyət vermirlər. Amma bu yaxınlarda həyata keçirilən bir araşdırmaya görə, ayaq dabanındakı sərtlik göründüyündən daha təhlükəli ola bilər. Elm adamları dabandakı sərtliklə yemək borusu xərçəngi arasında bir əlaqə kəşf edib. Londondakı Queen Mary Universitetindəki alimlər yemək borusu xərçəngini ovuc içlərində və ayaq dabanında sərtləşməyə yol açdığını ortaya çıxarıb. Bəzi hallarda xəstələrin dərisi o qədər sərtləşir ki, onlar dərini ülgüclə qazırlar. Yemək borusu xərçənginə səbəb olan iRHOM2 geni dərinin ən böyük hissəsini təşkil edən keratini nəzarət altına alaraq ovuc içlərindəki və ayaq dabanındakı dərinin qalınlaşmasında önəmli rol oynayır. Mütəxəssislər deyir ki, bu kəşf yemək borusu xərçənginin üzə çıxarılmasında olduqca faydalıdır. Yemək borusu xərçənginin əlamətləri:

- Udmaqda çətinlik
- Həzmdə problem və mədə yanması
- Bir şey yedikdən sonra dərhal qaytarma
- İştah və çəki itkisi
- Qarnın üst tərəfində, döşdə və ya kürəkdə ağrı, narahatlıq.





## Kubik-rubiki 4.69 saniyədə yığdı

15 yaşlı amerikalı yeniyetmə Patrik Pons kubik-rubikin yığılması üzrə dünya rekorduna imza atıb. Bu barədə "Daily Mail" xəbər verib. Video Ponsa məxsus YouTube kanalında yayılıb. Pons özündən əvvəlki rekordu 0.05 saniyə ilə qabaqlayaraq, kubik-rubiki 4.69 saniyədə yığıb. Yeniyetmə etiraf edib ki, qarşısına qoyulan vəzifənin öhdəsindən gələrək rekorda imza atdığı üçün sevincdən şok yaşayıb. O, kubiki cəmi 17 hərəkətlə həmin müddətə yığıb bitirməyi bacarıb. Bundan öncəki rekorda 2016-cı ilin noyabrında Mats Valk imza atmışdı. Həmin vaxt o, bu işə özündən əvvəlki rekordçudan, amerikalı Lukas Etterdən 0.164 saniyə daha az vaxt sərf etmişdi. Kubik-rubik macar arxitektura müəllimi tərəfindən, ötən əsrin 80-ci illərində kəşf edilib. Hər il dünyada bu oyuncaqlardan 10 milyon ədəd satılır.




QOÇ - Astroloji göstəricilər əsasən səfərlər istiqamətində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Odur ki, maddi imkanınız olduğu təqdirdə uzaq yola hazırlaşmağa dəyər.

BUĞA - Məhəbbət məsələlərində uğurlara yiyələnmək üçün şanslarınız artacaq. Əgər səhv sizdədirsə, üzr istəməkdən çəkinməyin. Hər halda ruhi yaxınlıq üçün çılğınlıqdan uzaq olmaq lazımdır.

ƏKİZLƏR - Münaqişəli gün olsa da, təmkin nümayiş etdirməklə sülhə nail olmaq mümkündür. Nahar ərəfəsində hisslərinizi daha bərk cilovlayın. Bu gün ulduzlar sizi varlandırmağa çalışacaq.

XƏRÇƏNG - İkitərəfli əməkdaşlığa başlamaq üçün gözəl ərəfədir. Bu səbəbdən də öhdənizə düşən işləri asanlıqla yerinə yetirə biləcəksiniz. Pul məsələlərində isə riskə getməyin.

ŞİR - Əməlli-başlı varlanma ehtimalınız var. Bunun üçün ilk növbədə məsuliyyətinizi dərk etməli və aldığınız dəvətlərə razılıq verməlisiniz. Nahardan sonra büdcənizdə artım mümkündür.

QIZ - Ətrafınızda olan insanlarla daha səmimi olmağa çalışın. Elə edin ki, hamının rəğbət mərkəzində olasınız. Bu cəhət daha çox sevgi və qohumluq tellərinə şamildir. Aktivliyinizi artırın.

TƏRƏZİ - Qərar çıxararkən təcrübəli insanların məsləhətlərindən bəhrələnə bilsəniz, gün ərzində narahatçılığınız olmayacaq. Saat 17-dən sonra yeni təklif və ya dəvətlər alacağınız gözlənilir.

ƏQRƏB - Büdcənizlə bağlı vəziyyət xeyrinizə olsa da, səhhətinizdə problem gözlənilir. Qan-damar sistemində, eləcə də qida məsələlərində diqqətli olun. Buna xatir münaqişələrdən qaçın.

OXATAN - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq imkanınız var. Bu istiqamətdə sizə ətrafınızda olan səmimi və təcrübəli insanların da köməyi dəyə bilər. Heç kimi incitməyin.

OĞLAQ - Əsas vaxtınızı iş prinsipinə yönəldin. Digər məsələlərə isə çox da aludə olmayın. Çünki işdən kənarda ciddi uğurlarınız gözlənilmir. Yersiz risklərə bugünlük son qoyun.

SUTÖKƏN - Çox maraqlı bir təqvim yaşayacaqsınız. Ola bilsin ki, ürəyinizcə olan bir xəbər də eşidəsiniz. Əgər imkan tapsanız, günün birinci yarısında müqəddəs yerlərə baş çəkin.

BALIQLAR - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün ümumi əhvalınız aşağı ola bilər. Amma özünüzü tənzimləyə və məqsədinizə yetişə bilərsiniz. Ailə üzvlərinizlə mehriban və səmimi davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Küçənin ortasında uşaq doğdu, sonra yoluna davam etdi



Çində hamilə qadın alış-veriş etdiyi zaman küçənin ortasında uşaq dünyaya gətirib. Çinli qadının küçənin ortasında uşaq dünyaya gətirdiyini görən vətəndaşlar öncə ona bir stul gətiriblər, ardınca isə yerə karton səriblər. Qadın təcili yardım heyəti gəlmədən öncə doğuşu gerçəkləşdirib. Doğuşdan dərhal sonra hadisə yerinə gələn həkimlər yeni doğulan körpəni əskiyə bükərək, anasına veriblər. Bu olayı isə ətrafdakı bir çox adam videoya çəkib. Videonun sonunda isə qadının bir əlində körpə, digərində isə çantalarla yoluna davam etdiyi görünüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100